DÜNYA XALQLARININ NAĞILLARI

# DAĞISTAN XALQLARININ NAĞILLARI

Bakı - «Təknur» -2013

Topladı və tərcümə etdi: **Səfiyev Natiq Yusif oğlu**
Redaktor: **İlyasova Güntəkin Natiq qızı**

**Dağıstan xalqlarının nağılları –**
**Bakı- "Təknur" – 2013, 76 səh .**

**Dilimizə tərcümə edilmiş bu topluda Dağıstan xalqlarının nağılları toplanmışdır. Burada oxucu dağlıq ölkədə yaşayan bir çox xalqların - avar, ləzgi, lak, darqi, kumık və başqalarının məişət, qəhrəmanlıq, sehrli və heyvanlar haqqında nağılları ilə tanış olacaqdır. Bu kitab tərcüməçinin sayca dördüncü tərcümə toplusudur.**

**Kitab məktəb yaşlı şagirdlər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.**

**İSBN: 978-9952-445-28-3**

**© Dağıstan xalqlarının nağılları. 2013.**

# DƏYİRMANÇININ OĞULLARI

## *(Avar xalq nağılı)*

Biri vardı, biri yoxdu, bir dəyirmançı vardı. Dəyirman iti axan çayın üstündə idi, o, özü isə öz işinin ustası idi. Dəyirmançı həyatından heç vaxt şikayətlənməzdi.

Onun saqqalı isə həmişə una bulanmış olardı. Lakin, bir gün dəyirmançı öldü. Onun üç oğlu qaldı və onlar mübahisəyə başladılar: dəyirmanla nə edək?

İki böyük qardaş onu bölmək istədi, kiçik qardaş isə onları yola gətirməyə çalışdı  ki, burada birgə fəaliyyət göstərsinlər.

Məgər onları yola gətirmək olar?

Onda qardaşlar dəyirmanı üç yerə böldülər, böyüyə bildirdilər ki, hansı hissəni istəyirsə götürsün.

- Mən atam kimi dəyirmanda işləmək istəmirəm. İstəmirəm onun kimi daim saqqalım unlu olsun, - deyə böyük qardaş bildirdi.

O, dəyirmandan imtina etdi və özünə dəhnəni götürdü.

- Mənim də unlu saqqalla gəzmək xoşuma gəlmir, - deyə ortancıl qardaş bildirdi, mən özümə dəyirmanın damını götürürəm. Beləliklə dəyirman kiçik qardaşa düşdü.

Böyük qardaş dəhnədə səliqə-səhman yaratdı, ortancıl qardaş damı təmir etdi, onların başqa işləri yox idi, kiçik qardaş isə səhərdən axşama kimi dəyirmanda işləyir, camaatın dənini üyüdürdü.

Tezliklə dəhnədə işləmək böyük qardaşın zəhləsini tökdü və o, beli atıb, çıxıb getdi.

O, az getdi, çox getdi, bir dağı aşdı, o birini arxada qoydu və əşdaha yaşayan dərəyə gəlib çıxdı.

- Əjdaha, salam ! – deyə o, qorxudan titrəyə-titrəyə təzim etdi.

- Gör necə nəzakətlidir! – deyə əşdaha deyindi, sonra o

soruşdu:

- Sən nağıl danışmağı və ya mahnı oxumağa bacarırsanmı?

- Yox, - deyə böyük qardaş cavab verdi, - bilmirəm.

- Belə de! Onda mən səni udacağam.

-O, bunu deyib böyük qardaşı uddu. Bir az keçmiş dəyirman damını təmir etməyin vaxtı çatanda, ortancıl qardaş da evdən getdi və o da əşdaha tərəfindən uduldu.

Kiçik qardaş isə çox yaxşı qardaş idi. Əgər iki qardaş yox olubsa, o, sakit oturub, un üyütməklə məşğul ola bilməzdi. Kiçik qardaş dəyirmanın işini dayandırdı, dəhnəni açdı və qardaşlarını axtarmağa yollandı.

- Əjdahaya salamlar olsun! – deyə o, qışqırdı, - Bu dərə boyda sənə salamlar!

- Gör necə lütfkardır! – deyə əjdaha deyindi. Sən mahnı oxumağı, nağıl danışmağı bacarırsanmı?

- Bunları necə bilməmək olar? İstəyirsən sənin üçün oxuyum , istəyirsən nağıl danışım, əmrinlə nə istəyirsən edim.

- Əvvəl bir nağıl danış, - deyə əjdaha buyurdu.

- Yaxşı! Ancaq əjdaha, mən nağılı qurtarana kimi sən nə “hə”, nə “yox” deməyəcəksən. Əgər desən, sənin qarnını yırtacağam.

- Razıyam! – deyə əşdaga bildirdi.

Və dəyirmançı nağıla başladı:

- Mənim əlli atım vardı. Mən onları otaran vaxt bərk istilər düşdü və hər yerdə su qurudu. Balaca dayçalar su içmək istədilər. Mən də onları çaya apardım. Çay buzla örtülmüşdü. Onda mən kəmərimdən baltanı çıxarıb buzu sındırdım. “Yazıq çayı qızdırmaq lazımdır!” - deyə mən düşündüm. Mən çör-çöp topladım və burada tonqal qaladım.

Bu tonqaldan yanğın baş verdi və çay, sahildəki daşlar yandılar.

Mən qorxdum və öz baltamın dalınca qaçdım. Görürəm: dəmir balta yanıb, onun sapı isə sağ-salamatdır.

Əjdaha istədi ki, desin “Yox, dəmir yanmır” lakin susdu.

- Mən irəli getdim, - deyə dəyirmançı öz nağılını davam etdi. Baltamla mən ağac kəsib, araba düzəltdim. Sonra həmin balta ilə güllə atıb, iki maral vurdum. Onların ətini yedim, dərilərini isə budaqlardan asdım ki, qurusunlar.

Bir gün gəldim ki, görüm dərilər nə vəziyyətdədir, həmin yerdə iki arıya rast gəldim. Arılar öz aralarında dava edirdilər. Onların davaları inciklik üzündən baş vermişdi. Arıların mübahisəsi bu idi ki,kim daha çox bal gətirər.

- Sizin mübahisənizi davasız -şavasız həll etmək olar, - deyə mən onlara bildirdim. – Uçun, bal gətirin, onda mən sizə deyərəm, kim haqlıdır.

Arılar bir-birini ötə-ötə bal toplamağa uçdular. Bir neçə gündən sonra hər iki maral dərisi balla dolu idi.

- Budur, görürsünüz, - deyə mən arılara dedim, - balı siz bərabər topladınız. Belə görünür ki, sizin mübahisəniz yersiz imiş! Və mən arıları arabaya qoşdum, dəriləri ora qoyub özüm də oturdum.

Arılar məni elə sakit və aramla gətirdilər ki, mən onları heç mahmızlamadım. Birdən arılardan biri nəyəsə ilişdi, mən istədim ki, qırmancla onu vurum, bədbəxtlikdən qırmancım buluda dolaşdı və mən göyə, çox yüksəklərə qalxdım. Bir əlimlə göy üzündən yapışdım, xeyli asılı vəziyyətdə qaldım, birdən ot tayası gördüm və göydən düz onun üzərinə düşdüm.

- Yox, - deyə əjdaha dilləndi, - bütün bunlar uydurmadır! Belə şey olmur.

- Uzan, qarnını bəri uzat! –deyərək, dəyirmançı xəncərlə əjdahanın qarnını yardı. Ordan dərhal böyük qardaşlar çıxdılar. Onlar çox arıqlamış, rəngləri isə saralmışdı. Lakin onlar həm məmnun, həm də xoşbəxt idilər.

Hər üç qardaş dəyirmana qayıtdı və birgə dostcasına, böyük həvəslə işləməyə başladı. Onlar daha saqqallarının unlu olmasından qorxmurdular.

# HAZIRCAVAB DƏYİRMANÇI

***(Avar xalq nağılı)***

Bir mollanın evində un qurtarır. Qış vaxtı olduğundan havalar soyuq idi. Şaxta da bir tərəfdən. Dəyirmanın dəhnəsində su azalmışdı. Ona görə də, üyüdülmək üçün bura buğda gətirənlərin sayı artmışdı. Hər kəs öz növbəsini gözləyirdi.

- Özün dəyirmana get, - deyə arvadı mollaya məsləhət gördü. –Sən burda hörmətli adamsan, orada səni çox gözlətməzlər. Molla elə də etdi. Bir kisə buğdanı uzunqulağın üstünə qoyub, molla dəyirmana yollandı.

- Mənim buğdamı üyüt, özü də tez! - deyə o, dəyirmançıya müraciət etdi.

- Mən, əlbəttə, üyüdərdim, - deyə dəyirmançı cavab verdi, - mənə nə var ki, hörmətli molla, özün görürsən ki, nə qədər adam öz növbəsini gözləyir. Sən də bir az burada oturmalı olacaqsan.

Mollaya bu, çox toxundu və o, dəyirmançını allahın qəzəbi ilə hədələməyə başladı.

- Əgər sən tezliklə mənim buğdamı üyütməsən, - deyə molla qışqırmağa başladı, - mən elə dua oxuyaram ki, allah dəhnədə suyu dondurar və dəyirmanın işi dayanar!

- Eh, molla, molla ! – deyə dəyirmançı gülümsündü. –Olmazmı ki, allaha dua edəsən sənin buğdanı una çevirsin!

Və molla üyüdülməmiş buğda ilə evə qayıtdı.

# ƏSA

## *(Avar xalq nağılı)*



Biri vardi, biri yoxdu, kənddə bir gənc yaşayırdı. Onun nə atası, nə də anası vardı. Lakin atasından ona yaxşı bir ev qalmışdı. Günlərin birində gənc atıcılığı ilə əylənəndə, ağacda üç göyərçin gördü.

Gənc oxu atdı və bir göyərçin yerə düşdü, onların ikisi isə uçub getdilər. Onda gənc bıçağı götürb, istədi ki, göyərçinin başını kəssin, quş dilə gəlib, dedi:

- Əgər sən məni kəssən, yaxşı bir iş əldə edə bilməyəcəksən, əgər məni sağ saxlasan qazancın çox olacaq.

Gəncin quşa yazığı gəldi və onu yedizdirməyə, sağaltmağa başladı.

Günlərin birində gənc yıxılıb yatdı. Göyərçin isə silkələn-

di və gözəl qıza çevrildi. O, dərhal evi yığışdırdı, otaqları ağartdı və hər şeyi səliqəyə saldı. Kasıb yuxudan ayılanda gördü ki, onun yanında gözəl bir qız oturub, evi isə tanımaq olmur: həm təmizdir, həm də yaxşı yır-yığış edilib.

Gənc təəccübləndi! O göyərçini tamam yaddan çıxartmışdı. Gözəl qız isə ona dedi:

- Mən həmin göyərçinəm ki, sən məni sağaltmısan. İndi isə mən istəyirəm ki, sənə minnətdarlığımı bildirim, öz verdiyim sözə əməl edim. Bundan belə mən sənin arvadın olacağam.

Kasıb sevindi və onların xoşbəxt həyatları başladı.

Qadın deməmiş xalça toxumaqda usta imiş. O, elə birinci gecə böyük xalça toxudu, səhər onu gəncə verib, bazara göndərdi. O xalçanı böyük qiymətə xanın vəzirinə satdı.

Axşam qadın yenə də bir xalça toxudu. Ertəsi gün xoşbəxt kasıb yenə də bazara getdi. Bu vaxt xan pəncərənin yanında oturmuşdu. O, gördü ki, gənc xalça satır. Xan oğlanı yanına çağırıb, vəzirdən çox pul verib xalçanı aldı.

Vəzir xana dedi:

- Dünən mən həmin adamdan xalça almışam.

Xan gəncdən soruşdu:

- Bu xalçaları sən hardan götürürsən?

- Onları arvadım toxuyur, - deyə gənc cavab verdi.

Kasıb evə gəldi. Xanla vəzir qərara aldılar ki, hər şeyi öyrənsinlər. Həyətdə onlar gəncin gözəl arvadını gördülər. Xan gənci yanına çağırıb, onu sorğu-suala tutmağa başladı.

- Sən bədbəxt kasıbsan, bu cür gözəl arvadı hardan almısan.

Hər şeyə inanan gənc hər şeyi olduğu kimi danışdı. Bunu görən onun arvadı məyus oldu. Lakin nə etmək olar? Xan qərara aldı ki, kasıbı burdan uzaqlaşdırsın, onun xalça ustası olan gözəl arvadını özünə övrət etsin. Xan gəncə müxtəlif tapşırıqlar verir, o da bunları sözsüz və vaxtında yerinə yetirirdi.

Nəhayət vəzir gənci yanına çağırdı və buyurdu:

- Gət əldə elə, götür və gətir!

Qüssəli kasıb evə qayıtdı və hər şeyi arvadına danışdı. Gözəl qadın balaca xalça toxudu, ərinə bir dəsməl verdi və dedi:

- Qəm etmə, hər şey yaxşı olacaq. Bu balaca xalçaya otur və o səni hara lazımdır, ora aparacaq. O dayananda isə dəsmalı yelləyərsən və soruşarsan: "Get götür" nə deməkdir?

Kasıb arvadı ilə xüdafizləşib, balaca xalçaya oturdu və göylə hərəkət etməyə başladı. O, dağlar, dənizlər, dərələr keçdi və hansısa mağaranın yanında yerə endi. Nəhayət balaca xalça dayandı. Kasıb ətrafına baxdı və qarşısında saray gördü. Onun hündür hasarları, göy gübbəsi, gözəl binaları vardı. Birdən kasıb dəsmalı yadına saldı və onu çıxartdı, yelləmək istəyirdi ki, yaşlı qadın olun üstünə atıldı və qışqırdı.

- Sən bu dəsmalı hardan götürmüsən?

- Onu mənə arvadım verib, - deyə gənc cavab verdi.

- O, sağdır məgər? – deyə qarı soruşdu və gənci qucaqladı. – Bil sənin arvadın mənim qızımdır.

Kasıb sevindi və başına gələn əhvalatların hamısını ona danışdı. Söhbətində o, üç göyərçindən də söz açdı. Elə bu anda onun yanına iki qız da qaçıb gəldi. Onlar arvadının bacıları, həmin uçub gedən göyərçinlər idilər. Gənc öz qohumlarının yanında qonaq oldu və onlara xanın vəzirinin ona verdiyi anlaşılmaz əmrindən söhbət açdı. Qohumlar xeyli fikirləşdilər, axtardılar, hamı ona kömək etmək istəyirdi.

Nəhayət bir qurbağa gələrək dedi:

- Gəl mənimlə gedək, hər şeyi öyrənərsən.

Qurbağa gənci belinə oturtdu və onlar hoppana-hoppana getdilər. Üç gündən sonra onlar qırmızı şəhərin yaxınlığında oldular, gəlib bir evin yanında dayandılar. Bu evin həyətində qurbağa bir çala qazdı və gənclə birgə onlar burada gizləndilər.

Tezliklə həyətə yeddi pəhləvan daxil oldu. Onların ən ki-

çiyi həyətdə gizlədilmiş əsanı çıxartdı və dedi:

- Get götür!

Əsa dərhal ləzzətli xörəklər gətirdi.

- Budur sənə lazım olan şey, - deyə qurbağa pıçıldadı. Pəhləvanlar yedilər, içdilər, əsanı gizlədib getdilər.

Bu vaxt qurbağa əsanı axtarıb tapdı, onu götürüb yenə də çalaya qayıtdı. Axşam pəhləvanlar qayıtdılar. Onlar yemək istəyirdilər, lakin əsanı tapa bilmədilər.

- Dərdimiz artdı, - deyə onlar öz aralarında söhbətləşdilər.

- Bizim bütün möhtəşəmliyimiz bu əsada idi.

- İndi biz olduğumuz yerdən çıxmalıyıq? – deyə qurbağa dilləndi. Gənclə birgə o çaladan çıxdı və ikisi bütün pəhləvanları öldürdülər.

Bunu eşidən qonşu şəhərin sakinləri çox sevindilər. Bu pəhləvanlar şəhərliləri incidir, onlara zülm edirdilər.

İndi şəhərlilər onları bəladan xilas edənlərin şərəfinə bayram edirdilər. Şəhərin xanı bütün var-dövlətini gəncə təklif etdi, o isə heç nə götürmədi.

Əsanı ələ keçirib, kasıb qurbağanın üstünə mindi və üç gündən sonra onlar kasıbın qohumlarının yanına qayıtdılar. Tezliklə oğlanın arvadı da bura uçub gəldi. Hamı sevindi. Öz qohumlarının yanında qonaq olan kasıb və arvadı balaca xalçaya minib evə qayıtdılar.

Gənc əsanı xana verdi, o da kasıbı çoxlu ənamla mükafatlandırdı. Xan bu gənc ailəni rahat buraxdı. Ər və arvad xoşbəxt ömür sürdülər.

# CANAVAR, AYI VƏ TÜLKÜ

### *(Avar xalq nağılı)*

Ayı, canavar və tülkü bütün yayı mehriban və yaxın dostlar kimi yaşadılar. Lakin qış gələndə hər yeri qalın qar örtdü və aclıq başlandı.

Ayı çürük ağacların dalınca getdi. Bu vaxt tülkü canavara dedi:

- Gəl ayını yeyək.

- Əgər ayı eşitsə ki, bunu sən demisən, o bizim hər ikimizi yeyər.

- Əgər sən mənə qulaq assan – deyə tülkü dilləndi, - biz ayını aldadıb yeyə bilərik. Indi sən uzan və özünü ölülüyə vur. Səni suya atsaq, özünü elə göstər ki, sən dirildin.

Ayı geri qayıtdı. O gördü ki, canavar ölüb. Ayı ağladı və dedi:

- Bizim yaxın dostumuz öldü.

Tülkü isə onu sakitləşdirib dedi:

- Ağlama, mənə məlumdur ki, bu çayın suyu ölünü dirildir.

Ayı və tülkü canavarı çaya gətirib onu suya atdılar. Canavar "dirildi". Onda tülkü ayıya dedi:

- İcazə ver səni yeyək. Yazda biz səni suya atarıq və sən dirilərsən. Buna görə sən iyirmi beş qoyun əldə edərsən.

Ayı razılaşdı. Tülkü və canavar onu yedilər.

# ƏKİNÇİ BƏBİRƏ NECƏ DƏRS VERDİ

***(Ləzgi xalq nağılı)***

Bir kəndin sakinləri meşənin kənarındakı tarlanı şumlayırdılar. Torpaq münbit idi, buradan onlar bol məhsul toplayırdılar. Budur, həmin yerdə bir bəbir peyda oldu. O, meşədən çıxaraq burada işləyən əkinçini və onun öküzlərini parçaladı. Belə hadisələr bir neçə dəfə təkrarlandı. Kənddə hamı vahimə içində idi. Igid cavanlar bəbiri öldürməyə yollandılar. Lakin onlar da heç nə edə bilmədilər.

- Deyəsən biz bu bəbirdən yaxa qurtara bilməyəcəyik, - deyə ovçular dilləndilər.

Əkinçilər tarlanı tərk etdilər. Axı kim vəhşi heyvanın caynağına keçmək istəyər? Onlar “ölməkdənsə, ac qalmaq yaxşıdır”, - dedilər.

Yalnız bir kəndli qorxmadı.

- Dayanın, - deyə o, dilləndi. – Mən bu bəbirə dərs verərəm!

O,iki öküzünü cütə qoşdu, pişiyini səsləyib, tarlaya yollandı.

Qonşular işi belə görüb, onun hərəkətinə təəccübləndilər və bir-birinə dedilər:

- Görünür, qonşumuz dəli olub, həyatı onun üçün əziz deyil.

Əkinçi isə tarlaya gələrək öküzləri cütdən açdı ki, şumlamadan qabaq bir az dincəlsinlər. Elə təzəcə bir öküzü açmışdı ki, bu anda bəbir meşədən çıxdı, başını qaldırıb fısıldadı, bığlarını tərpətdi. Onu görən öküz qorxaraq qaçdı.

Bu zaman o, pişiyi gördü. Bəbir onu nəzərdən keçirib təəccüblə soruşdu:

- Sən kimsən?

Pişik cavab verdi:

- Mən sənin bacın oğlunam. Sən mənim dayımsan.

Bəbir pişiyə baxıb dedi:

- Düzdür, sən bizim nəsildənsən, gözlərin, qulaqların, pəncələrin, bığların, quyruğun bəbirlərdə olduğu kimidir. Ancaq de görək, sən niyə bu qədər balacasan?

- Bu ona görədir ki, məni o insan ələ keçirib. Onun əlinə keçsən, sən də mənim kimi kiçilərsən, - deyə pişik cavab verdi.

- Deyirsən yəni o, çox güclüdür? – deyə bəbir fınxırdı. – Ondan qorxmuram! Indi mən onun öküzlərini və özünü yeyəcəyəm!

Pişik dedi:

- Get, gücünü sına!

Bəbir əkinçinin üstünə atıldı və nərildədi:

- Ey insan! Sən mənim bacım oğlunun başına nə oyun açmısan? Buna görə mən səni parçalayıb yeyəcəyəm!

- Qüdrətli bəbir! – deyə əkinçi sakit tərzdə cavab verdi. – Görürəm ki, mən səni qəzəbləndirmişəm, məni bağışla. Istəyirəm ki, sənin şikarın çox olsun.

Bəbir təəccübləndi:

- Bu, necə ola bilər? – deyə o, soruşdu.

Əkinçi dedi:

- Mənim iki öküzüm var. Biri səni görüb, qorxudan qaçdı. Sən bu öküzü saxla, mən gedib o biri öküzü tapıb gətirim. Onda sən bizim hamımızı yeyərsən.

- Mən onu necə saxlaya bilərəm? – deyə bəbir soruşdu.

- Gəl səni taxta boyunduruğa bağlayım, - deyə kəndli cavab verdi.

- Yaxşı, - deyə bəbir razılaşdı və özü başını boyunduruğa keçirdi.

Onun başı boyunduruğa girən kimi əkinçi qayışları möhkəm bərkitdi və bəbirin belinə qamçı çəkməyə başladı. O, qamçını çəkdikcə qışqırırdı:

- Tez ol, torpağı şumla!

Bəbir yerindən sıçradı, özünü ora-bura atdı, buradan

yaxasını qurtarmağa çalışdı. Ancaq əkinçi qamçını möhkəm endirirdi. Öküz qorxub irəliyə atılır, bəbir isə onunla boyunduruğu dartmalı olurdu. Əkinçi elə hey qışqırırdı:

- Tez ol, tez ol! Şırımdan çıxma!

Beləliklə, onlar tarlanın yarısını şumladılar. Pişik isə bəbirin yanınca gedir, ona baxırdı.

Bəbir ehtiyatla pişikdən soruşdu:

- Qulaq as, bacı oğlu! Sənin sahibin məni tezmi buraxacaq?

- O səni yəqin ki, mənim kimi balacalaşandan sonra buraxacaq, - deyə pişik cavab verdi.

Bəbir qorxdu:

- Mən onsuz da iki dəfə kiçilmişəm, - deyə o dilləndi. - Əgər əkinçi axşama kimi yeri şumlasa, mən səndən də kiçilə bilərəm.

O, başını aşağı saldı və boyunduruğu irəli çəkdi.

Nəhayət, axşam oldu. Əkinçi bəbiri biyunduruqdan xilas edib dedi:

- Indi cəhənnəm ol buradan və bir də mənim gözümə görünmə! Yoxsa səni boyunduruğa qoşub üç gün, üç gecə torpağı şumladaram.

Bəbir meşəyə qaçdı. O, ayaqlarını güclə sürüyürdü. Əldən düşmüş bəbir bir ağacın altında uzandı, dili bayıra çıxdı. Qarğalar elə bildilər ki, bəbir ölüb.

Onlar bəbirin üstünə enib onu dimdikləməyə başladılar. Yaxşı ki, bəbirin gücü quyruğunu yelləməyə çatdı və onunla qarğaları qova bildi.

Bundan sonra bəbir heç vaxt tarlaya yaxın düşmədi. Başqa vəhşi heyvanlara o, həmişə deyərdi:

- Insandan uzaqlaşın! O, çox güclü olmasa da, ağıllıdır. Insana bizim heç vaxt gücümüz çatmaz.

# ÜÇ BACI

***(Ləzgi xalq nağılı)***



Kənddə bir kasıb kişi yaşayırdı. Onun arvadı və üç qızı vardı. Günlərin birində arvad öldü. Bu ailənin qonşuluğunda bir dul qadın yaşayırdı. O, hər gün kasıb kişinin qızlarını evinə çağırar, onların könlünü ələ almağa çalışardı. Ataları işdən qayıdanda qızlar deyərdilər:

- Ata, nə olar, bu qadınla evlən də.

Kişi qızların sözünə qulaq asıb, dul qadınla evləndi.

Bir gün ögey ana ərinə dedi:

- Qızlarını evdən qovmasan mən sənin yanından çıxıb gedəcəyəm.

O, ərinə ötkəmliyini elə göstərdi ki, yazıq kişi ona dedi:

- Qoy sən deyən olsun, mən bazara kəhrəba almağa gedirəm, sən isə qızları tarlaya göndərərsən.

Ər bazara getdi, kəhrəba alıb tarlaya qayıtdı. Burada o, çala qazdı, onun üstünü keçə ilə örtüb, bura kəhrəba muncuqları düzdü. Bir azdan qızlar tarlaya gəldilər. Onlar atalarına yemək gətirmişdilər.

- Əziz qızlarım, mən sizə kəhrəba muncuqlar almışam, - deyə ata dilləndi. – Tez qaçın, keçənin üstündən onları götürün.

Qızlar sevindilər. Qaçıb muncuqları götürmək istəyəndə üçü də çalaya düşdü. Xeyli ağlayıb sızlayandan sonra bacılardan biri dedi:

- Qoy mənim əlim belə çevrilsin.
- Mənim əlim isə külüng olsun, - deyə o biri bacı dilləndi.
- Qoy mənim əlim ling olsun! – deyə üçüncü bildirdi.

Bu vaxt birinin əli belə, o birininki külüngə, üçüncününkü isə lingə çevrildi. Qızlar yeri qazmağa başladılar. Onlar qazdılar, qazdılar və nəhayət, bir at tövləsinin üstünə gəlib çıxdılar.

Bacılar buradan bir dəlik açdılar və gördülər ki, içəridə bir at xurma yeyir. Qızlar paltarlarını bir-birinə bənd elədilər və böyük bacı aşağı endi. O, atın qabağındakı xurmaları götürüb, bacılarının yanına qayıtdı. Ertəsi gün bura ortancıl bacı düşdü. O da böyük bacı kimi etdi.

Bir dəfə şah tövləyə atına baxmağa gəldi.

- Bir buna bax! At necə də arıqlayıb! Bu nədən ola bilər?

Şah öz oğullarına dedi:

- Çalışın, atın nədən arıqladığını öyrənəsiniz.

Burada ilk pusquda duran böyük oğul oldu. Lakin o, gözləyə bilməyib, yuxuya getdi. Ertəsi gün ortancıl oğul pusquda durdu. O da yuxuya getdi. Üçüncü gün növbə kiçik oğula çatdı. Gənc barmağının ucunu çərtdi və üstünə duz tökdü ki, ağrıdan yata bilməsin.

Bir azdan kiçik bacı tövləyə düşdü. O, elə gözəl idi ki,

günəşə deyirdi sən çıxma, mən çıxım, aya deyirdi sən çıxma, mən çıxım. Gənc qızı yaxalayıb, atasının yanına apardı. Burada o, kiçik bacının qabağına yemək və su qoydu. Qız bir dilimi ağzına qoyur, o birini isə cibinə atırdı. Bunu görüb, gənc soruşdu:

- Sən niyə belə edirsən?

Qız dedi:

- Mən tək deyiləm, bacılarım da var.
- Get onları da bura çağır.

Qız gedib bacıları ilə qayıtdı. Şah gözəl qızları görcək qərara aldı ki, oğlanlarını evləndirsin. Yeddi gün, yeddi gecə toy oldu.

Sizə kimdən deyək – kiçik bacıdan. Kiçik bacı şahın kiçik oğlundan uşaq gözləyirdi.

- Uşağı necə doğurlar? – deyə o, bacılarından soruşdu.

Bacılar belə cavab verdilər:

- Sən dama çıx və bacanın üstündə otur, biz isə aşağıda xəlbir tutarıq.

Kiçik bacı gedib bacanın üstündə oturdu. O, bir oğlan və bir qız doğdu. Uşaqların qızılı saçları vardı.

İş elə gətirdi ki, bu vaxt şahın bir iti küçüklədi. Bacılar küçükləri götürüb, xəlbirə qoydular, uşaqları isə sandığa qoyub, çölə atdılar.

Şah öyrənəndə ki, onun gəlini küçüklər doğub, əmr etdi ki, iti öldürsünlər, gəlini isə itin dərisinə bürüyüb qapıya bağlasınlar.

Meşəyə odun yığmağa gedən bir qarı bacıların çölə atdıqları sandığı tapır. O, sevinərək, onu evinə aparır. Qarı sandığı açanda burada iki uşaq görür. O, uşaqları böyüdür. Onların yeddi yaşı tamam olanda xəbər yayılır ki, şahın kiçik oğlunun toyudur. Qarının qızı və oğlu da toya yollanır. Bunu görəndə qarı deyir:

- Geri qayıdanda özünüzlə bir parça ət götürərsiniz. Onu şahın qapısına bağlanmış itə atarsınız.

Uşaqlar toya gedirlər. Evə qayıdanda onlar ət parçasını itə atırlar. Onların bu hərəkətini şahın oğlu görür. O, fikirləşir: "Hamı itə ancaq sümük atdı, bu uşaqlar isə ona ət verdilər". O, əmr edir ki, həmin uşaqları sabah da toya dəvət etsinlər.

Ertəsi gün toyda rəqs etmək növbəsi uşaqlara çatır. Oynaya- oynaya qardaş öz bacısına deyir:

- Hamının anası sağ-salamatdır, bizim anamız isə itin dərisindədir.

Bunu eşidən şahın oğlu soruşur:

- Siz kimin uşaqlarısınız?

- Biz filan qarının uşaqlarıyıq, – deyə onlar cavab verdilər.

Şahın oğlu qarını çağırtdırıb, ondan soruşur:

- De görüm, bu uşaqlar kimindir?

Qarı cavab verir:

- Günlərin birində mən odun yığmağa meşəyə getmişdim. Orada bir sandıq tapdım. Sandıqda olan bu uşaqları mən əziyyətlə böyütmüşəm.

Bu vaxt şah soruşur:

- Həmin sandıq dururmu?

Qarı sandığı gətirib şaha verir. Şah öz sandığını tanıyır. O, qarıya çoxlu pul verib, onu yola salır. Oğlunu və qızını sarayına gətirtdirir. Onların anasını hamının gözü qabağında öz halal arvadı və uşaqlarının anası elan edir. Onu zər-zibaya qərq edib könlünü alır. Arvadın bədxah bacılarını isə vilayətdən qovdurur.

# GÖY ÇAQQAL

***(Ləzgi xalq nağılı)***

Bir həftədən çox idi ki, çaqqal şikarsız qalmışdı. Acından tamam arıqlamışdı. Bir gecə o, yaxınlıqdakı kəndə ova getdi. Toyuq- cücə tapmaq ümidi ilə burada dolandı, amma əlinə hec nə kecmədi. Çarəsiz qalıb bir evin damına çıxdı. Bacadan aşağı düşən çaqqal düz gedib boya ilə dolu çəlləyin icinə düşdü. Ev yiyəsinin yun sapları boyamaq üçün hazırladığı rəngə boyanan çaqqal "daha mənim axırımdır",deyə düşündü və meşəyə tərəf götürüldü.

Bu vaxt onun qabağına bir tülkü çıxdı.

- Bədənindəki göy ləkələr haradandır? - deyə tülkü gülə-gülə ondan soruşdu.

- Bilsəydim mən neçə bəladan qurtulmuşam, heç mənə gülməzdin, - çaqqal incidi.

Tülkünün çaqqala yazığı gəldi.

O, dedi:

- Əgər dediklərimə əməl etsən, səni doyunca yedizdirərəm.

- Sən nə desən ona əməl edəcəyəm,- acından taqətini itirən çaqqal razılaşdı.

Onlar meşənin içindəki talanın ortasındakı palıd ağacının yanına gəldilər.

- Vəd etdiyin yemək hardadir? – deyə çaqqal soruşdu.

- Tələsmə, - deyə tülkü ciddi halda cavab verdi. – Palıdın koğuşunu görürsənmi? Sən hələlik burada yaşayacaqsan. Yadında saxla,sən bu gündən bu meşənin hökmdarının varisisən. Elə edəcəyəm ki, bütün heyvanlar sənə tabe olacaqlar.

Göy çaqqal heyrətə gəldi:

- Sənin başına hava gəlib?

- Xeyr, mənim ağlım başımdadır. Yadında saxla, sən meşələr şahı şirin oğlusan. Atan səni buranın heyvanlarını

idarə etməkdən ötrü göndərib. Mən isə sənin vəzirinəm. Mənim məsləhətim olmadan bir addım da atma. Aydındır?

- Aydın olmağına aydındır, amma bax gör, mən şaha oxşayırammı? - deyə acından yerə sərilmiş çaqqal soruşdu.

- Bunun sənə dəxli yoxdur. Mən nə desəm, onu edəcəksən.

Çaqqal koğuşun içinə girib, qıvrılıb uzandı, tülkü isə heyvanları xəbərdar etməkdən ötrü meşəyə yollandı. O, heyvanları şaha təzim etmək üçün talaya çağırdı və xəbərdar etdi: "Özünüzlə hədiyyə gətirməyi unutmayın ha!"

Tülkü hardansa bir kətil tapıb talaya qayıtdı.

Heyvanlar şahın qəzəbindən qorxaraq talaya tərəf üz tutdular.Kimi bir parça ət, başqası bal, digəri çöl siçovulu gətirmişdi.

Ayılar, qabanlar, canavarlar, dovşanlar bir birinin dalınca düzülüb gəlmişdi. Tülkü hədiyyələri qəbul edib palıdın koğuşuna girdi və çaqqala dedi:

-Gəl dostum, doyunca yeyək, sonra çıxıb bir nitq söyləyərsən.

Onlar yeməklərin üstünə atıldılar. Heyvanlar isə talada səbirlə şahı gözləyirdilər. Nəhayət, tülkü koğuşdan çıxıb dedi:

-Hörmətli hökmdarımız şirin varisini – bizim əziz şahımızı qarşılayın!

Heyvanlar kətildə oturmuş çaqqala təzim etdilər. Şahın çaqqala oxşamasi onları şaşırtsa da göy rəngli olması şübhələrdən uzaqlaşdırdı.

Tülkü çaqqalı çətin vəziyyətdən qurtarmaq üçün dilləndi:

- Şahımız yol gəlib, yorulub, ona görə də onun sözlərini sizə mən çatdiracağam. O, sizdən razılıq edir. Şahınızı sevin və onun sözündən çıxmayın!

Sonra şahı bütün heyvanların adından ayı salamladı. Ayının nərəsini eşidən çaqqal qorxudan əssə də başını silkələyib razılığını bildirdi:

-İndi isə gedə bilərsiniz. Cümə günü şahın xanımı bura gələcək. Onu da hədiyyələrlə qarşılıyarsınız.

Heyvanlar çıxıb gedəndən sonra tülkü özündən razı halda dedi:

-Hə dostum, səni neçə şah etdiyimi gördünmü? Gedək yemeyimizi yeyib qurtaraq.

Çaqqalla tülkü koğuşa girib qarınları şişənə kimi yedilər. Sonra isə dincəlmək üçün yerə uzandılar.

Tülkü təzəcə mürgüləməyə başlamışdı kı, birdən çaqqalın səsini eşitdi:

-Vəzir, ay vəzir!

-Nə olub, şah? Toxluqdan şitlik edirsən?- tülkü hirsləndi.

-Sən nə cürətlə şahla belə danışırsan? – deyə çaqqal özündən çıxdı. -Susamışam,tez ol mənə su gətir.

-Az yeyəydin, - tülkü deyindi.

-Səsini kəs,- deyə çaqqal bağırdı. -Yadından çıxıb ki, mən şaham? Görmədin heyvanlar mənə neçə təzim edirdilər? Mənim atam da, babam da, şah olublar.

Tülkü hiddətləndi:

-Şaha bir bax, səni mən şah elədim. Səsini kəs, yoxsa göy dərini boğazından çıxararam.

Tülkünün qəzəbləndiyini görən çaqqal qorxuya düşdü. O, mülayimçəsinə dedi:

- Gedək, bir yerdə su axtaraq.

Onlar meşədə bir bulaq tapıb doyunca su içdilər. Kefi kökələn çaqqal tülküyə verdiyi vədi unudub var gücü ilə ulamağa başladı.

Yaxınlıqdakı kolda bir canavar yatmışdı. O, gözlərini açıb qarşısında göy çaqqalı görəndə hər şeyi başa düşdü.

“ Biz necə də səfeh olmuşuq”, - deyib tullanıb çaqqalın boğazından yapışdı.

# XƏSİS QAZI

### *(Ləzgi xalq nağılı)*

Bir kənddə kasıb bir adam yaşayırdı. Bir dəfə o, bir bardaq qızıl pul tapır və onu gizlətmək qərarına gəlir.Lakin müvafiq yeri hec cürə tapa bilmir. Onda o, qazını yada salır və fikirləşir: "Hamı həm məsləhət üçün, həm də mübahisəli məsələlərin həlli üçün qazının yanına gedir. Mən də qızılı aparıb verim ona, qoy o, saxlasın". O, bir bardaq qızılla qazının yanına gəlir və onu masanın üstünə qoyur.

Qazı deyir:

-Rəfə qoy!

Kasıb bardağı rəfə qoyub, evinə yollanır.

İki-üç aydan sonra kasıb qızıllarını geri götürmək üçün qazının yanına gedir.

-Bardaq qoyduğun yerdədir, - deyə qazı bildirir.

Kasıb bardağı götürüb evə gəlir.

Bardağın qapağını qaldıranda orada qızıl əvəzinə bal görür. O, qərara gəlir ki, bu barədə hec kəsə hec nə deməsin.

Kasıbın qonşuluğunda bir müəllim yaşayırdı. O, kasıbı pərişan görüb ondan nə baş verdiyini soruşur:

-Mənim bir bardaq qızılım vardı, saxlamaq üçün qazıya vermişdim. İndi onu geri alanda, gördüm ki, qızıl bala çevrilib, - deyə kasıb cavab verir.

Qazının iki oğluna dərs deyən müəllim deyir:

-Gedib meşədən iki ayı balası gətir, qalanı ilə işin yoxdur.

Kasıb meşəyə gedib, oradan iki ayı balası tutub gətirir, onları müəllimə verir. Müəllim qazının əynindəki çuxadan geyinir və gündə üç dəfə ayı balalarına ətəyində yem verir.

Bir müddət sonra ayı balaları çuxanın ətəyində yeməyə öyrəşir.Bir dəfə müəllim qazının oğlanlarını bir neçə günlüyə öz evində saxlayır.

Uşaqlarını xəbər almaq üçün qazı müəllimin yanına gə-

lib soruşur:

-Hanı mənim uşaqlarım?

-Onlar ayı balalarına çevriliblər, - deyə müəllim cavab verir.

-Sən nə danışırsan? Məgər uşaqlar ayı balalarına çevrilə bilər? deyə - qazı təəccüblə soruşur.

Müəllim deyir:

-İnanmırsansa sən burda otur, mən ayı balalarını buraxıram. Əgər onlar sənə tərəf gəlib çuxanın ətəyindən tutsalar, deməli sənin uşaqlarındır, yox, əgər bunu etməsələr, deməli səninki deyillər.

Qazı və onun yaxın adamları müəllimin otağında otururlar. Bu vaxt müəllim ayı balalarını buraxır. Onlar dərhal qazının yanına qaçıb onun çuxasının ətəyindən dartmağa başlayırlar. Adamlar qazıya deyirlər:

-Qazı, müəllim haqlıdır, sənin uşaqların ayı balalarına çevriliblər.

Qazı hirslənib onları otaqdan qovur və müəllimə deyir.

-Müəllim dediklərin həqiqətdir. - Lakin mənə de görüm, uşaqlar ayı balalarına neçə çevrilə bilərlər?

Onda müəllim cavab verir:

-Ay qazı, bəs bardaqdakı qızıl bala necə çevrilə bilər?

-Allah xətrinə, gəl məndən iki bardaq qızılı götür ,ancaq balalarımı özümə qaytar, - deyə qazı ona yalvarır.

Müəllim qazıdan iki bardaq qızılı alır. Birini kasıba verir,o biri bardağı isə özünə götürür və qazının uşaqlarını evə buraxır.

# DOSTLUĞUN SINAĞI

## *(Ləzgi xalq nağılı)*



Deyirlər ki, çoxdan lap çoxdan bir şahlıqda bir qarı yaşayırdı. Onun Ələsgər adında yeganə oğlu vardı.

Ələsgər böyüdü, boylu-buxunlu, güclü bir gənc oldu. Bir gün anası ona dedi:

-Sən indi yekə kişisən. Öz çörəyini özün qazanan vaxtındır. Qazanc dalınca get!

Səhər qarı evdə olan axırıncı undan oğlu üçün iki lavaş bişirib, ona verdi.

-Bax ha, oğul, - deyə qarı yolqabağı oğluna öyüd verdi, - yolda özündən böyüyə rast gəlsən, onu "ağa" adlandır. Öz yaşına uyğun adamla rastlaşsan, onu özünə qardaş bil. Yol getdiyin adama deyərsən:

"Mən çox istəyirəm ki, səninlə birgə yol gedim. Ancaq mən bir saatlıq yaxınlıqdakı kəndə dəyməliyəm. Məni göz-

ləyə bilərsənmi? Birgə yol gedəndə adamın ürəyi açılır”. Əgər o, səni gözləsə deməli, yaxşı yoldaşdır. Sonra, bir xeyli yol getdikdən sonra belə deyərsən:

“Mən çox yorulmuşam. Artıq yemək vaxtıdır.Gəl istirahət edək!” Və sən öz yol yoldaşına lavaşı uzat. Əgər o, lavaşı iki yerə bölsə, deməli, sənin sadiq dostun olacaq.Əgər sizin qarşınıza çay  çıxsa, sən dərhal ayağını soyun. O, sənsiz suya girməyib, desə ki: “Niyə biz ikimiz də, ayaqlarımızı suya salaq? Gəl mən səni belimdə o tərəfə keçirim”, bil, bu yoldaş həyatın boyu sənin dostun və qardaşın olacaq.

Qarı oğluna öz öyüdlərini verdi və gənc yola düzəldi.

Ələsgər az getdi, çox getdi, nəhayət, yaşlı bir adama rast gəldi. Həmin adamla bir az  yol getdikdən sonra, o, anası öyrətdiyi kimi dedi:

-Ağa, məni bir az gözləyə bilərsənmi? Mən qonşu kəndə dəyib, qayıdıram.

O, bir az aralanıb yoldakı kolun dalında gizləndi.Gördü ki, qoca bir az gözləyib, çıxıb getdi.

Ələsgər yoluna davam etdi. Ertəsi gün səhər o, bir gəncə rast gəldi, həmin adam ondan bir az böyük idi. O, bildirdi ki, adı Əlağadır. Onlar tanış olub, birlikdə yol getdilər. Bir az gedəndən sonra Ələsgər dedi:

-Qardaş, məni bir az gözləyə bilərsənmi? Burada otur, mən yaxınlıqdakı kəndə dəyib gəlirəm.

O, yolun kənarındakı daşın dalında gizləndi.Ələsgər gördü ki, yol yoldaşı sakitcə oturub, onu gözləyir.Ələsgər sevindi və öz-özünə dedi: “Bax, məhz bu, mənim yoldaşım olacaq!”

Yoldaşlar yollarına davam elədilər və nahar vaxtı çatanda, Ələsgər Əlağaya lavaş uzatdı.

O, lavaşı iki yerə böldü, hər kəsə eyni bərabərdə pay düşdü. “Əlağa mənim əsl dostum olacaq!” – deyə Ələsgər fikirləşdi.

Onlar az getdilər, çox getdilər, qarşılarına iti axan gur çay çıxdı. Ələsgər başladı ayağını soyunmağa. Əlağa dedi: “Niyə

biz ikimiz də ayaqlarımızı soyunaq və suya girək? Sən mənim belimə min və mən səni çaydan keçirim".

Ələsgər sevindi. O, yəqin etdi ki. Əlağa əsl dost və yoldaşdır.

Onlar yenə xeyli yol getdilər və dərin bir mağaraya rast gəldilər. Dostlar bura daxil oldular və gördülər ki, mağara ləl-cavahiratla doludur. Dostlar buradakı var-dövlətə əməlli – başlı baxmamış, birdən səslər eşitdilər. Bunlar bir dəstə quldur idi. Quldurlar şahın xəzinəsini qarət etmişdilər, indi də qəniməti bölməyə hazırlaşırdılar. Onlar hər şeyi böldülər, növbə qızıl tutacağı olan qılınca çatanda möhkəm mübahisə başladı və yumruqlar işə düşdü.

Mübahisənin qızğın çağında Ələsgər bir daş götürüb onlara tərəf atdı. Qorxmuş quldurlar fikirləşdilər ki,mağarada kabus var və buradan qaçdılar. Ələsgər isə onları qovanda dərin bir dərəyə düşdü. "Əgər Əlağa məni burdan çıxarsa, o, mənim əsl dostum və qardaşım olacaq, - deyə Ələsgər fikirləşdi. - Əgər, məni çıxarmasa, mənim axırım çatıb."

Bu vaxt o, eşitdi:

-Ey, Ələsgər, mən sənə kəndir atıram!

Əlağa Ələsgəri dərədən çıxardı.

-Sağ ol, qardaş, - deyə Ələsgər onu qucaqladı: - Ömür boyu sənin yaxşılığını unutmaram.

-Sən niyə mənə öz minnətdarlığını bildirərsən? – deyə Əlağa təccübləndi.

-Düzdür, burada qızıl, qiymətli daşlar və başqa var- dövlət istənilən qədərdir. Əgər mən bunlara sahib olsaydım, şah kimi əzəmətli,varlı olardım. Lakim mənə var- dövlət lazım deyil, mənə təmiz vicdanım vacibdir. Çörəyini və yolunu mənimlə bölüşəni köməksiz qoyub gedə bilərdimmi?

Gənclər var- dövlətlə Ələsgərin anasının yanına qayıtdılar. Qarı çox sevindi ki, onun öyüdləri oğlu Ələsgərə kömək edib və o, özünə əsl dost tapıb.

# TƏNBƏL QIZ

***(Ləzgi xalq nağılı)***



Biri vardı, biri yoxdu, bir qarı ilə oğlu vardı. Əkinçiliklə dolanan onların təsərrüfatları iki öküzdən ibarət idi.

Qış günlərinin birində könlünə ət yemək düşən qarı dedi:

-Oğlum, gəl bu öküzlərdən birini kəsək.

Oğlu anasının bu sözündən kədərləndi:

-Ay ana, əgər öküzün birini kəssək, tarlanı neçə şumla-

yacayıq?

-Məgər biz yaza kimi bir öküz ala bilməyəcəyik? –deyə ana oğlunu sakitləşdirdi.

Oğul anasının sözündən çıxa bilmədi, öküzü kəsdi, qarı isə ətdən bütün qışı müxtəlif dadlı yeməklər bişirdi. Yaz gəldi, qonşular şuma çıxdılar, qarı ilə oğlunun isə öküz almağa pulları olmadı.

-Qonşular tarladadır. Bizim də ora getmək vaxtımızdır! –deyə oğlu dillənəndə qarı etiraz edə bilmədi.

Onlar xışla və tək öküzlə tarlaya yollandılar.

Oğul öküzü sol tərəfdən qoşquya qoşdu, özü isə sağ tərəfə keçib tarlanı şumlamağa başladı.

Əyanları və nökərləri ilə ova çıxan xan bu qeyri – adi qoşqunu görüb oğlandan soruşdu:

-Niyə qoşquya öküz əvəzinə özun qoşulmusan?

O isə cavab verdi:

-Bizim iki öküzümüz vardı, qışda anam xahiş etdi ki, birini kəsim. Sonra isə pulumuz olmadı ki, yenisini alaq. Ona görə də xışa öküz əvəzinə özüm qoşulmuşam.

-Qulaq as, - deyə xan dilləndi.

-Dağdakı otlağımda vəhşi və tənbəl bir öküzüm var. Bu vaxta kimi heç kəs ona boyunduruq keçirə bilməyib. Əgər bacarsan, onu gətirib xışa qoş.

Gənc əkinçi sevindi, xana təşəkkürünü bildirib dağdakı otlağa yolladı.

Öküz dırnaqları ilə yeri eşir, buynuzları ilə hec kimi yaxın buraxmırdı. Lakin oğlan ona kələk gəldi. O, böyük bir çala qazdı və öküzü ora qovdu. Çalaya düşən öküz burada yeməksiz qalıb gücdən düşdü. Onda gənc onun boynuna ip salıb evə gətirdi. Üç gün onu susuz, yeməksiz saxladı. Öküz sakitləşəndə oğlan onu xışa qoşdu.

Bu hadisədən bir xeyli vaxt kecdi. Bir gün ova çıxan xan gördü ki, gənç əkinçi yaz şumunu həmin vəhşi öküzlə aparır. Xan fikrə getdi. Onun gözünün ağı - qarası bir qızı vardı, o da

çox tənbəl idi. Elə tənbəl idi ki, çörəyi də özü yeyə bilmirdi. Saraya qayıtdıqdan sonra xan öz vəzirinə dedi:

-Qızımı tənbəllikdən ancaq o gənç əkinçi xilas edə bilər.

Vəzir onu anlayıb dərhal atını tarlaya çapdı və xanın dediklərini olduğu kimi əkinciyə çatdırdı.

-Xan istəyir ki,onun qızını sən tənbəllikdən qurtarasan. Əgər qızı almaq istəsən, xan etiraz etməyəcək.

-Yaxşı, elçi göndərərəm! - deyə əkinçi cavab verdi.

O, evə qayıdanda anasına dedi:

-Sabah xanın sarayına get.Onun qızını mənim üçün istə.

-Məgər xan öz yeganə qızını kasıb əkinçiyə verərmi? – deyə ana təəccüblə soruşdu.

-Verər, - deyə oğlu anasını əmin etdi.

Qarı xanın qəzəbindən qorxsa da, çarəsiz qalıb saraya yollandı:

-Oğlum məni bura göndərib ki,qızına elçilik edim, - dedi.

Xan məmuniyyətlə razılığını bildirdi:

-Qızımı oğluma verərəm.

Qarı sevinclə evə qayıtdı.

-Hə, nə oldu, ana? –deyə gənc soruşdu. – Xan səni necə qəbul etdi?

-O, razıdır! – deyə qarı bildirdi.

Tezliklə gənc əkinçi xan qızı ilə evləndi.

Toy gününün səhəri oğlan tarlaya getməyə hazırlaşdı.

-Bax ha, - deyə o, anasına tapşırdı,- nəbadə çörəyi gəlinin əlinə verəsən. Çörəyi görünən bir yerə qoy. Çalış özün də bu gün evdə olma. Aclıq güc gələndə özü götürüb onu yeyəcək.

Elə də oldu. İşdən sonra ana və oğlu evə qayıdanda gördülər ki, boşqabdakı çörək parçası yoxdur.

İkinçi gün gənç anasına tapşırdı:

-İndi isə çörəyi qonaq otağına qoy, yanında qoyun pendiri də olsun.

Qarı oğlunun dediyini yerinə yetirdi və onlar tarlaya get-

dilər.

Axşam ana-bala evə çatanda gördülər ki, xan qızı pendir çörəyi yeyib.

Üçüncü gün gənc anasına dedi:

-Bu gün çörəyi görünən yerdə qoyma.Qoy gəlin onu axtarsın.

Qarı çörəyi, pendiri, çayı anbara qoydu, özü isə oğlu ilə birgə evdən çıxdı. Onlar axşama kimi çöldə oldular.

Xan qızı yumşaq mütəkkənin üstündə xeyli oturdu, darıxdı və möhkəm acdı.

"Görünür bu adamlar işləməyənlərə yemək vermirlər. Gərək işə başlayım. Yoxsa onlar mənə şam yeməyi verməzlər..." deyə o, fikirləşib işə başladı. Evi səliqəyə saldı, qabları yudu, ocaq qaladı. İşləyərkən anbarda yemək görüb iştahla onu yedi.

Tarladan qayıdan ana bala gördülər ki, ev səliqəyə salınıb, hər yer tər - təmizdir, ocaq qalanıb. Xan qızı qarıya yaxınlaşıb onu xalçada oturtdu, altına mütəkkə qoydu.

O vaxtdan xan qızı tənbəlliyin daşını atdı.O da əri ilə birgə tarlaya gedir,qayıdan da isə ev işlərini görürdü.

Bir gün xan öz vəziri ilə bərabər kürəkəngilə yollandı. Onları hörmətlə qarşıladılar. Kürəkən qaynatasının ayağının altında toğlu kəsdi, qarı isə plov dəmlədi.

Xan qızı bu vaxt səhənglə bulaqdan qayıdırdı. Qız atasını görüb çox sevindi. Bir azdan o atasının qulağına pıçıldadı:

-Ata, ocaqdan kənara sıçrayan közləri görürsənmi? Tez ol, onları ocağa at. Burada işləməyənlərə yemək vermirlər.

Xan təəccübləndi, hec nə deməyib yerdəki közləri ocağa atdı. Ev yiyələri qonaqlara necə lazımdır,qulluq etdilər. Xan və vəzir xudahafizləşib saraya qayıtdılar. Xan ürəyində çox sevinirdi ki, qızı tənbəlliyin daşını atıb və o, xöşbəxtdir.

# FALFARAŞ-AXUN

***(Ləzgi xalq nağılı)***

Xatay-Xutay ölkəsi padşahının gözəl bir bağı vardı. Buranı müxtəlif meyvələri olan ağaclar bəzəyirdi. Bağa təkcə bağban girə bilərdi. Lakin bura Falfaraş-Axun adında bir tülkü dadanmışdı. O, qarnını doyurmamış burdan çıxıb getməzdi. Bağban qərara gəldi ki, nə olursa-olsun bu heyvanı tutmalıdır. Ona görə də tələ qurdu və ona böyük bir tikə quyruq qoydu. Tezliklə tülkü bağa gəldi. O, quyruğu görüb çox sevindi. "Xöşbəxtlik mənim yanıma öz ayağı ilə gəlib", - deyə tülkü Allaha şükür etdi. Birdən o, fikirləşdi: "Ey Falfaraş-Axun, sən kitablarda oxumusan ki, tamahkarlıq bədbəxtlik gətirir. Bəlkə bağban bura quyruğu qoyub ki, səni tələyə salsın?"

Tülkü ayaq saxladı, lakin quyruğa baxıb ağzı sulandı. "Mübariz olan təhlükədən qorxmur" , -deyə Falfaraş-Axun fikirləşdi, - bu quyruq hec də mənə Allah tərəfindən göndərilməyib. O, azqala əlini quyruğa vuracaqdı, lakin nəfsini saxladı və öz-özünə dedi: "Əgər səbrsiz olub, axmaqlıq etsən, məhşər günü adamlar məni nümunə göstərərək deyəcəklər:" Sən məşhur tülküdən də səfehsən.

Yaxşı olar ki, bir səfeh axtarım və onunla saziş bağlayım. Ona deyərəm ki, quyruq tapmışam, ona yarısını bağışlamağa söz verirəm və onu bura gətirərəm. Əgər o, tələyə düşsə, quyruq özümə qalar. Əgər bu, tələ deyilsə, onu ikimiz bölərik. Bəs belə səfehi hardan tapmalı? Falfaraş-Axun fikrə daldı. Birdən onun yadına düşdü ki, atası Baləhməd Axun qədim kitabların birində səfehlərin əlamətlərini oxumuşdu. Orada belə yazılmışdı: " Kimin boyu uzun, gözləri rəngbərəng, dişləri seyrəkdirsə, kürən saqqalı ovcuna sığmırsa, o, səfehdir". Bütün bu xüsusiyyətlər Baləhməd-Axunda vardı və o. hirslənib, kitabdakı həmin sözlərin üstündən xətt çəkmişdi. Görkəmini dəyişməyi qərarlaşdıran Baləhməd –Axun saqqalını ovcuna yığıb, artıq hissəsini oda tutdu.Saqqal alovlandı və onun yumruğunu yandırdı. O, yumruğunu açanda bütün

saqqalı yandı. Əgər mən səfeh olmasaydım, saqqalımı yandırardımmı?"-deyə Baləhməd-Axund fikirləşdi və kitabda üstündən xətt çəkdiyini yenidən ora yazdı. Bunu yadına salıb, Falfaraş-Axun qərara aldı ki, atasının oxşarını axtarıb tapsın. Tülkü bağdan çıxdı və bu vaxt canavara rast gəldi. Tülkü onu salamladı:

-Sən burada nə edirsən? –deyə canavar soruşdu.

Tülkü cavab verdi:

-Atam ölərkən mənə vəsiyyət edib ki, elə adama qulluq göstər ki, sənə oxşayan olsun. O vaxtdan mən onu axtarıram. Nəhayət, səni tapdım. Atam Baləhməd-Axuna daha çox sən oxşayırsan. İcazə ver, ömrümün qalan hissəsini sənə vicdanla xidmət edim.

-Allah Baləhməd –Axuna rəhmət eləsin. Mən eşitmişəm ki, o, çox ağıllı olub və indi mən buna inandım.

-Atama olan hörmətimə görə, sənə ehtiram göstərəcək, səni bəlalardan qoruyacağam.

Tülkü canavarın yanında qaldı. Bir neçə gündən sonra o, canavara dedi:

-Mən yağlı quyruq görmüşəm! - İstəsən, onu sənə göstərə bilərəm.

-Gedib onu özün ye, -deyə canavar cavab verdi. Tülkü isə dedi:

-Biz tülkülər bir ay pəhriz saxlayırıq və ət yeyə bilmərik.

-Onda gedək, -deyə canavar bildirdi və ikisi yola düşdü. Tülkü canavarı padşahın bağına gətirdi və quyruq parçasını ona göstərdi. Canavar quyruğa yaxınlaşan kimi hər iki pəncəsi tələyə düşdü. Tələ bağlandı və quyruq kənara sıçradı. Tülkü ləzzətlə quyruğu yeməyə başladı.

Canavar təəccübləndi:

-Əzizim, məgər sən pəhriz saxlamırsan?

Tülkü ona baxıb cavab verdi:

-Bir göyə bax, orda təzə ay görünür, deməli mənim pəhrizim qurtarıb.

Faltaraş-Axun quyruğu yeyib çıxıb getdi. Bağban bağa gələndə tələyə düşmüş canavarı görüb, onu öldürdü.

# ŞAMAMA

***(Ləzgi xalq nağılı)***



Bir kənddə bir qoca ilə bir qarı yaşayırdı. Onların evində iki qız böyüyürdü. Qızlardan biri qarının, o biri qocanın idi. Qocanın qızı gözəlliyi, xoş xasiyyəti və zəhmətkeşliyi ilə seçilirdi. Qarının qızı isə dalaşqanlığı və tənbəlliyi ilə tanınırdı. Qarı doğma qızlını daim əzizləyər, ögey qızına isə göz verib, işıq verməzdi.

Bir gün qarı qocaya əmr elədi:

- Qızını hara istəyirsən apar, təki gözüm onu görməsin.

Qoca xurcununa bir şamama qoyub peşman halda qızını da götürüb evdən çıxdı. Onlar bir xeyli yol gedəndən sonra kəndin qurtaracağındakı tarlaya çatdılar. Oturub yorğunluqlarını almaq qərarına gəldilər. Qızının yuxuya getdiyini görən qoca şamamanı onun yanında qoyub evə qayıtdı.

Bir azdan qız oyandı. Gördü ki, tarlada tək-tənhadır, yanında isə balaca bir yemiş var. O acı-acı ağladı. Bu vaxt bir dəstə qarğa onun başı üstündə dövrə vurmağa başladı. Onlar qarıldaşdılar:

- De görüm, sən quşcuğazsanmı?
- Hə, mən yazıq quşcuğazam, - deyə qız cavab verdi.

Bu sözləri eşidəndə qarğalar ona toxunmayıb, uçub getdilər.

Qız şamama ilə oynamağa başladı. Sonra ona dedi:

- Ah, şirin yemiş, səni yeyim, yeməyim?

Şamama dil açdı:

- Yaxşısı budur, məni yerdə diyirlə.

Qız onun sözünə əməl etdi. Birdən yemişin diyirləndiyi yerdə gözəl bir ev ucaldı.

Qız sevindi. Bir azdan o, şamamadan soruşdu:

- Ah şirin yemiş, səni yeyim, yeməyim?

Şamama isə bu dəfə dedi:

- Məni tarla aşağı diyirlət.

Qız onun dediyi kimi elədi. Birdən onun qarşısında bir təndir peyda oldu. Onun içində indicə bişmiş çörək var idi. Qız ləzzətlə çörəyi yeyib, yenidən şamamanı oynatdı. Bu dəfə şamama diyirlənib tarla aşağı getdi və arabaya cevrildi. Arabada nələr yox idi: pal-paltar, süfrə, yorğan- döşək...

Qız onları evə daşıdı, çörəyin üstünü süfrə ilə örtdü. Sonra isə bəzənib çölə çıxdı. Yenidən şamamanı diyirlətdi. Bu dəfə şamama lap uzağa diyirləndi və gözəl bir xalçaya çevrildi. Elə bu vaxt bir gənc çoban oradan keçirdi. O, sevincək halda xalçanın üstündə oturdu. Xalça o saat göyə qalxdı və uçub düz qızın yanında aşağı endi. Çoban qızı görüb heyrətə gəldi:

- Sən kimsən, gözəl qız? – deyə soruşdu.
- Ögey anam məni evdən qovdu, doğma atam məni çöldə azdırdı. Bu balaca şamama isə məni aclıqdan və tənhalıqdan qurtardı. Üstəlik bu gözəl evi də mənə bağışladı, - deyə qız cavab verdi.

Oğlan bir könüldən min könülə qıza aşiq oldu. Onlar evləndilər, balaca şamamanı isə pəncərənin qabağına qoydular.

O vaxtdan aylar ötdü. Bir dəfə qarı qocaya dedi:

- Get, heç olmasa qızının sümüklərini yığıb gətir.

Qoca tarlaya yollandı. Burada gözəl bir ev ucalırdı. İçəridən onun qızı çıxaraq atasını hörmətlə qarşıladı, yedirib-içirib, hədiyyələrlə yola saldı.

Qoca evinə qayıdanda şad və xürrəm idi. O, gördüklərini qarıya danışanda qarı qışqırdı:

- Yaramaz qoca, öz qızını ərə vermisən, mənim qızım isə evdə qarıyır. Tez ol, mənim qızımı da həmin tarlaya apar!

Qarı qızı üçün şirin kökələr bişirdi və onu qoca ilə yola saldı. Qoca isə qızını başqa səmtə apardı. Bir xeyli yol gedəndən sonra onlar yorulub dincliklərini almaq üçün oturdular. Qız yuxuya gedən kimi qoca evə qayıtdı.

Bir azdan qız oyananda gördü ki, böyük bir tarlada tək-tənha qalıb. O, ucadan ağlamağa başladı. Səsə bir dəstə qarğa uçub gəldi. Onlar qarıldaşıb soruşdular:

- De görüm, sən quşcuğazsanmı?

Qız hirslənib onları əlləri ilə qovmağa başladı:

- Rədd olun, lənətə gəlmiş qarğalar!

Bunu görəndə qarğalar qızı dimdikləməyə başladılar.

Ertəsi gün qarı ərini tarlaya göndərdi:

- Get, gör mənim qızım necə yaşayır.

Qoca tarlaya çatanda gördü ki, qarının qızının ancaq sümükləri qalıb. O, sümükləri xurcuna yığıb evə gətirdi və arvadının qabağına atdı. Qarı acı-acı ağladı. Lakin artıq gec idi.

# ÜÇ MÜDRİK MƏSLƏHƏT

***(Darqi xalq nağılı)***

Nə vaxtsa bir çar böyük şəhər salmaq fikrinə düşür. Bunun üçün o, əmr verir ki, onun ölkəsində olan bütün mahir bənna və xarratları toplasınlar. Onların arasında bir gənc bənna da vardı. Bu gənc toy gecəsinin ertəsi günü bura gəlmişdi.

Ustalar şəhəri on iki il inşa etdilər. Illər keçdi, işlər tamamlandı və ustaları evə buraxmağa başladılar. Onların uzun müddətli əməklərinə mükafat verildi. Hər bir inşaatçıya ya pul götürmək, ya da üç müdrik məsləhət almaq təklif olunurdu. Lakin ustalardan heç biri pulun yerinə müdrük məsləhət almaq istəmədi. Toyunun səhərisi tikintiyə gələn bənna isə bildirdi ki, o həmin üç məsləhəti eşitmək istəyir. Onda çar dedi:

- Birinci məsləhət budur:  heç vaxt öz yükünü təsadüfən rastlaşdığın adamın atının üstünə qoyma! Ikinci – heç vaxt arvadı qoca, əri cavan və ya arvadı cavan, əri qoca olan evdə qalma! Üçüncüsü – yadında saxla üçüncü barmağın dırnağına bax, səbirli ol! Hövsələli ol! Sözləri yazılıb, ona riayət elə!

Bundan başqa çar həmin bənnaya arpa unundan bişirilmiş üç kömbə verdi və dedi ki, onları evə daxil olmamış bölməsin.

Budur, gənc o biri iki usta elə evlərinə yola düşdü.

İsti günorta çağı bir atlı onlara çatdı.

- Dostlar, - deyə o, ustaları səslədi, - Gəlin mən sizə kömək edim. Öz əşyalarınızı, yükünüzü atımın tərkinə qoyun.

Hər iki bənna öz yüklərini ata qoydular. Həmin atlı qamçını ata elə çəkdi ki, at bənnaların yükləri, pul və geyimləri ilə götürüldü.

İki usta aldandı, gənc bənna isə həmin atlıya heç nə vermədi.

Bənna fikirləşdi: «Çarın verdiyi birinci məsləhət karıma çatdı. Yoldaşlarımın hər şeyi əllərindən çıxdı, mənim yüküm isə salamat qaldı».

Axşam oldu və ustalar bir kəndə çatdılar. Qərara aldılar ki, bir evdə gecələsinlər. Gənc bənna görəndə ki, burada qadın cavandır, kişi isə qoca, o buradan çıxdı və başqa evdə gecələdi. Hamı yuxuya gedəndən sonra cavan qadın ərinin boğazını kəsib, qışqırmağa başladı ki, qonaqlar ərimi öldürüblər. Hiddətlənmiş kənd camaatı bura gələrək hər iki ustanı öldürdülər.

«İkinci məsləhət də mənə kömək elədi», - deyə bənna fikirləşdi və yoluna davam etdi.

Tale cavan oğlanı doğma evinə bayram ərəfəsində gətirib çıxartdı.

Bənna addımlarını yavaşıtdı və evindən səs eşitdi. Evdən iki səs gəlirdi: qadın və kişi. O, elə bu dəmdə tüfəngini götürüb, pəncərəni nişan aldı. Bu vaxt o, üçüncü barmağın dırnağını gördü. Həmin barmaq tətikdə idi. Özünü saxladı, söhbətə diqqətlə qulaq asmağa başladı. Bənna bu sözləri eşitdi:

- Ana, atam nə vaxt qayıdacaq? – deyə gənc dilləndi.

- Tezliklə, oğlum, tezliklə, çar artıq ustaları evlərinə buraxır. Sənin atan da bu günlərdə qayıdacaq, - deyə bənnanın arvadının səsi eşidildi.

- Bu da mən! – deyərək bənna sevinclə qışqırdı və otağa daxil oldu. Arvadı onun boynuna sarıldı, onun ardınca oğlu atasını qucaqladı. Sevincdən sonra özünə gələn arvadı dedi:

- Axı sən yoldan gəlmisən, acsan. O, masaya yemək düzmək istədi, bənna qoymadı və dedi ki, çar mənə hədiyyə olaraq üç, kömbə verib.

- Bənna kömbəni böldü. Burdan beş yüz qızıl pul töküldü. O biri – ikinci və üçüncü kömbədə də o qədər qızıl pul vardı.

# XALA AVA VƏ XORUZCUĞAZ

***(Darqi xalq nağılı)***



Bir kənddə Xala Ava adlı qadın yaşayırdı. O, çox kinli, qəzəbli idi. Qadın heç kəsi sevmir, hamını incidir və söyürdü. Qonşular onun həyətinə girməyə belə qorxurdular.

Bir gün Xala Ava öz bağında qoz toplayırdı. Bu vaxt hasarda xoruzcuğaz göründü.

- Mənə qoz ver, Xala Ava, – deyə o xahiş etdi.

Xala Ava əlindəki ağacı xoruzcuğazın üstünə atdı. O, az qala xoruzcuğazın pəncəsini zədələyəcəkdi.

- Əl çək! Verməərəm!

Xoruzcuğaz göz yaşları ilə evə qaçdı. Yolda o, qıyığa rast gəldi.

- Sənə nə olub, xoruzcuğaz? Niyə ağlayırsan? – deyə qıyıq soruşdu.

- Mən Xala Avadan qoz istədim, o isə mənim üstümə ağac atdı.

- Gəl qəzəbli Xala Avanın dərsini verək, - deyə qıyıq dilləndi.

- Biz ona necə dərs verə bilərik? – deyə xoruzcuğaz soruşdu.

- Mən onun nalçasına girərəm, o, ora oturanda onun bədəninə bataram.

Xoruzcuğaz və qıyıq birgə getdilər. Onların qarşısına göyərçin çıxdı.

- Dostlar, hara gedirsiniz?

- Gedirik Xala Avanın dərsini verək.

- Məni də özünüzlə götürün!

- Sən bizə necə kömək edə bilərsən?

- Mən ocaqda oturaram. Xala Ava odu üfürəndə külü onun gözlərinə tökərəm.

Xoruzcuğaz, qıyıq və göyərçin birgə getdilər. Onlar bir daşa rast gəldilər.

- Möhtərəm dostlar, hara gedirsiniz? – deyə o soruşdu.

- Xala Avanın dərsini verməyə gedirik.

- Məni də özünüzlə götürün!

- Sən bizə necə kömək edə bilərsən?

- Mən qapının yanında uzanaram. Xala Ava evdən çıxanda onun kürəyinə zərbə vuraram!

Xoruzcuğaz, qıyıq, göyərçin və daş birgə getdilər. Nəhayət, onlar Xala Avanın daxmasına gəlib çıxdılar.

Xala Ava təzəcə uzanıb mürgüləyirdi. O, xoruldayanda qıyıq onun, nalçasında, göyərçin ocaqda, daş isə qapının ağzında yerləşdi.

Xoruzcuğaz qanadlarını çırpdı və səs-küy saldı.

Xala Ava səsi eşidib, hövlnak yerindən qalxdı. O, elə bildi ki, pişik şkafa qalxıb.

- Cəhənnəm ol, yaramaz! – deyə o dilləndi.

Xoruzcuğaz isə daha möhkəm səs salır və qanadlarını çırpırdı.

Daxma qaranlıq idi. Xala Ava qərara gəldi ki, odu üfürsün. Elə təzəcə ocağa əyilmişdi ki, göyərçin ordan pırıldadı və kül Xala Avanın gözlərinə töküldü.

Xala Ava qorxdu və nalçaya oturdu. Qıyıq onun bədəninə girdi. Xala Ava qapıya tərəf yollandı. Bux- daş onun kürəyinə zərblə dəydi.

Qəzəbli, kinli Xala Ava çox uzaqlara qaçdı. Xoruzcuğaz isə çoxlu qoz yığdı, çoxlu yedi, hətta göyərçini də qonaq etdi.

Daş qozları sındırırdı.

Qıyıq isə kənək qozları qabıqdan çıxarırdı.

# QIZIL BAŞMAQ

***(Lak xalq nağılı)***



Biri vardı, biri yoxdu, bir kəndli yaşayırdı. Onun üç oğlu vardı. Bir gün kəndli öz tarlasına baxmağa getdi və gördü ki, bu sahəni at tapdalayıb. O, evə qayıtdı və böyük oğluna dedi.

-Bizim tarlamız bir at tərəfindən tapdalanıb. Bu gün sən oranın gözətçiliyini etməlisən.

Böyük oğul geçə tarlaya getməkdən qorxdu, hardasa gizləndi və səhərə kimi yatdı.

Evə qayıdanda ata ondan soruşdu.

-Necəsən, tarlada nə gördün?

-Heç nə baş vermədi, - deyə oğul cavab verdi.

Elə həmin gün ata tarlaya baxmağa getdi və gördü ki, ora yenə at tərəfindən tapdalanıb.

Bu dəfə ata ortancıl oğlunu gözətçilik etməyə göndərdi. O da böyük qardaşı kimi hərəkət etdi.

Üçüncü gün ata tarlaya kiçik oğlunu göndərdi. Kiçik oğlu öz çeçələ barmağını  kəsdi və üstünə duz tökdü ki, gecə ağrıdan yata bilməsin. O, tarlada gəzişməyə başladı. Bir azdan tarlaya iri atlı daxil oldu. Kiçik oğul atın yüyənindən yapışdı. Oğlanın əlində qızıl başmaq qaldı, atlı isə yox oldu. Kiçik oğul evə qayıdıb hər şeyi atasına danışdı. O çox təəccübləndi. Kiçik oğul dedi:

-Ata, mən qızıl başmağın ikinci tayını və onun sahibini tapmalıyam.

Ata oğlunu buraxmaq istəmədi, lakin gənç öz sözünün

üstündə durdu və səfərə çıxdı. O, çox getdi, az getdi, dərə - təpə düz getdi və nəhayət bir şəhərə çatdı. Gənc kasıb bir qarının evinə daxil olub soruşdu.

-Qonaq qəbul etməzsiniz?

-Qonaq allahın göndərdiyidir, oğul gir içəri – deyə ev yiyəsi cavab verdi.

Bir az istirahət edəndən sonra kəndlinin oğlu soruşdu:

-Şəhərdə hansı yeniliklər var?

-Vallah oğul - deyə qarı cavab verdi, - bizim şəhərdə hər geçə küçəyə çıxanlar məhv olurlar. Onları kim öldürür? – məlum deyil. Onda gənc qarıya dedi:

-Get çarın yanına və ona de ki, bir oğlan var, o bizi və şəhəri əjdahalardan xilas edə bilər. Qarı çarın yanına yollandı və ona dedi:

-Möhtərəm çar, səni salamat olasan! Mənim evimdə bir əcnəbi yaşayır. O, söz verdi ki, bizi əşdahalardan xilas edəcək.

-Qarı tez ol, onu bura gətir! – deyə çar əmr etdi.

Qarı evə gəldi və qonağı çarın yanına gətirdi. Çar ona dedi:

-Sən əgər bizi bu əşdahadan xilas etsən, mən sənə, çoxlu mükafat verəcəyəm.

Gənc eşitmişdi ki, əşdaha qəbirstanlıq tərəfdə qorunur. Ona görə də o qəbirstanlıq tərəfə gəldi və orada gizləndi. Gecə yarısı o, güclü səs eşitdi, sonra burada uzun qorxulu vicud göründü. O, belindən bir qamçı çıxartdı bir qəbrə vurdu, qəbir açıldı, ordan ölü çıxdı, sonra qamçı ilə bir də vurdu, ölü yerinə qayıtdı. Onda gənc onun üstünə atıldı və əlindən qamçını aldı. Bu vaxt qorxulu vicud yox oldu.

Səhər gənc çarın yanına gəldi və ona hər şeyi danışdı.

Çar çox sevindi:

-De, görək, səni nə ilə mükafatlandırım? Nə istəyirsən istə, nə arzun varsa, de!

-Sağ və salamat ol, çar! – deyə gənc cavab verdi. –Mənə heç nə lazım deyil! Təkcə mənə kömək elə, bu başmağın o

biri tayını tapa bilim.

-Sənə nə qədər istəyirsən var - dövlət verə bilərəm, ancaq bu başmağın o biri tayını tapmağa sənə kömək edə bilməyəcəyəm.

Onda gənc hər şeydən imtina etdi, çarla xudafizləşib yoluna davam etdi. O, çox getdi, az getdi, nəhayət başqa şəhərə gəlib çatdı. Bu şəhəri başqa çar idarə edirdi. Gənc bu dəfə də kasıb qarının evində məskən saldı. O, gördü ki, ev yiyəsi tamam çılpaqdır, ondan soruşdu.

-Niyə sənin ətində paltar yoxdu, lütsən?

Qarı cavab verdi:

-Vallah, oğul, bizim şəhərdə heç kəsin əynində paltar yoxdur. Bizim şəhərə üzüb gələn mallarla dolu gəmilər gecələr burada batır. Heç kəsə məlum deyil ki, onları kim batırır.

Gənc qarıya dedi:

-Mən şəhəri bu bəladan qurtararam. Get çara de!

Qarı hər şeyi çara danışdı.

Çar əmr etdi ki, mərd əcnəbini dərhal onun yanına gətirsinlər. Çar ondan soruşdu.

-Şəhərimizi əşdahalardan qurtarmaq üçün sənə nə lazımdır?

-Mənə bir neçə gəmi lazımdır, -deyə gənc cavab verdi. Ancaq qoy onlar dənizə bir-bir çıxsınlar. Beləliklə mən biləcəyəm onları kim batırır.

Gəmilər bir- bir dənizə çıxmağa başladılar. Birdən kimsə birinci gəmini saxladı və onu aşağı çəkməyə başladı. Gənc qorxdu ki, kiminsə əli gəmini dənizin dibinə çəkir. Gənc onun üstünə atıldı, əl yoxa çıxdı, ancaq kəndlinin oğlu onun barmağından üzüyü çıxara bildi. Onda hünərvər gənc qərara aldı ki, görsün ki, sualtı çarlıqda nələr baş verir. Qəribə burasındadır ki, o, dənizdə olsa da tam quru idi, islanmamışdı. O, çox getdi, az getdi, gəmi dənizin gedişinə çatdı. Gənc burada çox hündür qala gördü. Qala o qədər hündür idi ki, onun

təpəsinə baxanda adamın başındakı qapaq yerə düşə bilərdi. Gənc qalaya daxil oldu. O, burada gördü ki, böyük süfrə açılıb üstündə isə ləzzətli yeməkər düzülüb. Ancaq burada heç bir canlı vicud görünmür. Gənc yedi, içdi, istirahət etdi və birdən gördü ki, açıq sandığın üstündə qızıl başmağın bir tayı var. Gənc sandığın üstünə başmağın o biri tayını qoydu, özü isə gizləndi. Bir az keçəndən sonra bura üç göyərçin uçub gəldi. Onlar tük və lələklərini atıb, gözəl qızlara çevrildilər.

Birdən onların kiçiyi qızıl başmağın tayını görüb, dilləndi.

-Bu başmağın tayını mən uzaq ölkədə qoymuşam. O bura necə gəlib çıxıb. Yəqin burada kimsə gizlənib. Əgər gəlmisənsə, çıx səni görək. Gənç gizləndiyi yerdən çıxdı.

-Biz dəniz hökmdarının qızlarıyıq, -deyə qızlar dillən-dilər.

-Bəs sən kimsən?

Gənc qızlara öz sərgüzəştlərindən danışdı, onlara qamçını və üzüyü göstərdi.

-Bu, mənim üzüyümdür, - deyə böyük qız bildirdi.

-Bu qamçı isə mənimdir, -deyə ortancıl dilləndi.

Kiçik qız və gənc dərhal bir-birlərini sevdilər və evlənmələrinə qərar verdilər.

Çar və çariça razılıqlarını bildirdilər və tezliklə böyük toy çaldırdılar: burada yeddi cüt zurnada və nağarada çalan iştirak edirdi. Sonra gənc öz arvadını və onun bacılarını öz qardaşları üçün götürüb, dəniz çarından çoxlu qiymətli hədiyyələr alıb, evə yollandı.Yolla gedərkən o, kömək göstərdiyi çarlara baş çəkdi. Onlar da ona çoxlu hədiyyələr verdilər. O, evə gəldi. Dəniz çarının qızlarını  qardaşlarına ərə verdi. Burada da böyük toy çaldırdı, toyda bütün şəhər şənlik etdi.

# İLAN VƏ TÜLKÜ

***(Lak xalq nağılı)***



İlan və tülkü dost olsalar da həmişə bir-birlərini məhv etmək haqqında düşünürdülər.

Günlərin birində ilan tülküyə dedi:

- Xalq Məkkəyə gedir ki, müqqəddəsləri ziyarət etsin və onlara dua oxusun. Gəl biz də ora gedək.

Tülkü razılaşdı və onlar Məkkəyə yola düşdülər. Gecə getdilər, gündüz getdilər, nəhayət dəniz sahilinə gəlib çatdılar.

- İndi biz nə edək? – deyə ilan soruşdu. – Axı mən üzməyi bacarmıram. Biz o biri sahilə necə çıxa bilərik?

- Gəl sən mənim belimə min, - deyə tülkü cavab verdi. O fikirləşdi ki, suda ilanı üstündən atar və beləliklə onu məhv edər. Lakin dənizin ortasında ilan tülkünün boynunu sıxmağa və onu boğmağa başladı. Tülkü bunu görüb, dedi:

- Mənim canım bədənimdən çıxmaqdadır, mən sənin gözlərinə baxmadan ölməkdən qorxuram. Imkan ver, son dəfə sənə baxım.

- Yaxşı, - deyə ilan razılğını bildirdi və başını irəli uzatdı. Tülküyə elə bu lazım idi. O ilanın başından yapışdı və onu gəmirdi. Işini gördükdən sonra, tülkü dedi:

- Mən rəfiqədə düzlüyü xoşlayıram, əyriliyi yox!

# AYI BALASI

## *(Lak nağılı)*

Bilinmir bu əhvalat olub ya olmayıb, lakin deyirlər ki, bir kənddə dul kişi və onun gözəl bir qızı vardı.

Dul kişiyə arvadsız yaşamaq çətin idi. Ona görə o, ikinçi dəfə evləndi. Ögəy ana evə daxil olan kimi ögəy qızını sevmədi, səhərdən axşama kimi ərinə rahatlıq verməyərək deyirdi.

-Qızı hara istəyirsən apar, ancaq o, bura qayıtmasın!

Əri ondan xahiş edir, onu yola gətirmək istəyir. Lakin zalım qadın öz sözünün üstündə durur, nəhayət istəyinə nail olur. Qızın özü atasından xahiş edir:

-Gedək, məni burdan apar. Dünya böyükdür, mənə heç nə olmaz. Ata öz qızı ilə bazara getdi. Ovcudan ayı dərisi alıb, qızına geyindirdi və onunla paytaxta yollandı.

O, çar sarayının yanından kecəndə, möhkəm qışqırmağa başladı.

-Ayı balası satıram.! Ayı balası satıram!

Şahzadə bunu eşidib, pəncərədən baxdı və soruşdu.

-De, görək, ayı balası nə etməyi bacarır?

-Nə əmr etsən, -deyə ata bildirdi.

Şahzadə bu əyləncəyə sevindi.

Ona üç qızıl verib, ayı balasını aldı.

Budur, ayı balası şahzadənin yanında yaşayır, onu şənləndirir, onun yatağını, silahını təmizləyir, masada ona qulluq edir. Şahzadə onu tərifləməkdən doymurdu.

Qız isə bütün işlərini gördükdən sonra gündə oturub, çar dərzilərindən xahiş edib götürdüyü parcalardan özünə paltar tikirdi.

O, artıq üç paltar: gümüşü, qızılı, və rəngbərəng donları tikib qurtarmışdı. Bu donlar elə gözəl, elə nazik idilər ki, qız onları qoz qabıqlarının içində gizlətmişdi.

Günlərin birində sarayda böyük şənlik məclisi təşkil

olundu. Burada çar, şahzadə və əyanlar iştirak edirdilər. Qız əynindən ayı dərisini atıb, gümüşü paltarını geydi və o da məclisə getdi.

O, rəqs etmək istəyirdi.

Şənlikdə belə gözəl qızı görənlər onu hörmətlə qarşılayıb, şahzadənin yanında oturtmuşdular.

Musiqi calındı, gənclər rəqs etməyə başladılar. Qız da şahzadə ilə rəqs etdi. Şahzadə ondan gözünü çəkmirdi, qız onun çox xoşuna gəlmişdi. Lakin şahzadə ona baxıb çox zövq ala bilmədi. Rəqs bitən kimi qız qaçdı və heç kəs bilmədi ki, qız kimindir və o, hardan gəlib?

Şahzadə hamıdan qızı soruşdu, lakin onlar əllərini yelləyir və başlarını bulayırdılar.

O, qərara gəldi ki, yenə də məclis təşkil etsin. Bəlkə, həmin gözəl yenə də gələcək?

Budur yenə də musiqi çalındı və qonaqlar toplandı. Hamı rəqs etməyə başladı. Həmin qız yenə də bayrama gəldi. Bu dəfə onun əynində gümüşü yox, qızılı paltar vardı. Bu donda o, daha gözəl görünürdü. Hamı yalnız ona baxırdı. Qız yenə də şahzadə ilə rəqs etdi və yenə də gözlənilmədən yox oldu. Onu hamı axtarırdı¬ – qızı axtaranların arasında ayı da vardı. Sarayı ələk-vələk etdilər, lakin qızı tapa bilmədilər. Şahzadə yenə bayram təşkil edib, qonaqları dəvət etdi. Çox gözəl şənlik təşkil olundu. Musiqi çalındı. Hamı rəqsə başladı. Bu dəfə qız bura al-əlvan donda daxil oldu. O, gözəlliyi ilə, donu ilə məclisə gələnlərin gözlərini qamaşdırdı. Şahzadə onunla rəqs etdi və qızın barmaqlarına üzük taxdı, və xahiş etdi ki, onun həyat yoldaşı olsun. Qız razılaşdı, lakin şahzadənin başı nəyəsə qarışanda qız yenə də yox oldu. Daha onu görən olmadı. Bütün paytaxtı gəzdilər, axtardılar, hər bir evə daxil oldular, gözəl heç yanda yox idi.

Onda şahzadə dedi:

-Çəkisi az, hamının ləzzətlə yediyi yeməkləri hazırlayın. Mən öz nişanlımı axtarmağa yola düşürəm. Onu bütün çar-

lıqda axtaracağam.

Hamı yol tədarükü görməyə başladı, çörək bişirdilər. Ayı balası ilə aşbazın yanına gəlib, bir parça xəmir istədi.

-Aşbaz hirsləndi.

-Yeri get burdan! – deyə onun üstünə qışqırdı. – Səni yox olasan! Sənsiz də adamın ürəyi sıxılır, ürəyi sıxılır.

Bunu eşidən şahzadə sevimli ayı balasınıa yazığı gəldi:

-Ona bir parça xəmir ver, onun nə tağsırı var?

Qız ayıya xəmir verdilər, o isə öz guşəsinə gəldi və üzüyü onun içində gizlədib, onu sobaya apardı. Çörəkçi onu bişirdi və ayı həmin balaça kökəni yola tədarük olunan xurcuna qoydu.

Ayının bu hərəkətinə güldülər və ona sataşmağa başladılar.

Lakin şahzadə yenə də, onu müdafiə etdi.

-Əl çəkin ondan, - deyə o, dilləndi. Kim bilir, bəlkə həmin kökə bizə uğur gətirəçək.

Şahzadə yola çıxdı, bütün çarlığı əvvəldən axıra kimi gəzdilər, gözəli isə tapa bilmədilər.

Onların yol ehtiyyatı da, qurtardı. Şahzadə nökərlərdən soruşdu:

-Yeməyə bir şey qalıbmı?

-Yox, -deyə nökərlər cavab verdilər. Ancaq ayının bişirdiyi çörək qalıb.

-Nə etməli, onu bura gətirin. Mən onun dadına baxım?

Şahzadə çörəyi yarıya böldü, onun içərisindən üzük çıxdı. Şahzadə öz hədiyyəsini tanıdı.

-Gör mənim nişanlım kim imiş! -deyə o, qışqırdı. –Dərhal evə qayıdırıq.

-Sən niyə görə belə şənsən? – deyə çar oğlu evə qayıdanda ondan soruşdu. -Sevgilini tapdınmı?

-Tapdım! – deyə şahzadə cavab verdi.

-Ancaq mən çox acmışam. Qoy ayı balası mənə tez yemək gətirsin.

Ayı balasına buyurdular ki, şahzadəyə xörək aparsın, o, isə tərslik etdi. Şahzadəyə xəbər verdilər ki, ayı balası sözə qulaq asmaq istəmir.

Şahzadə güldü.

-Yaxşı! Mən özüm onu bura gətirərəm.

O, ayı balasına öz yatağına gətirib, ona dedi:

-İndi isə daha bəsdi gizləndin. Öz dərindən kənara çıx.

Qız ayı dərisini üstündən atdı və ordan gözəl, nadir inci çıxdı.Və sarayda böyük şənlik başlandı. Toyu yeddi zurnaçı, yeddi nağaraçı apardı. Şahzadə gözəl qızı aldı. Gördünüz ayı balası nə etdi!

# SÜLEYMAN XAN

***(Lak xalq nağılı)***

Bir kənddə, qonşuluqda iki kasıb yaşayırdı. Birinin iti, o birinin isə pişiyi vardı. Kasıblar özlərini güclə dolandırırdılar. Bir gün it pişiyə dedi:

-Burada yaşayışımız çox ağırdır. Gəl meşəyə gedək.

Pişik cavabında:

-Qonşu, yəqin ki ,orada günümüz pis keçməz.

-Sən olarsan Süleyman xan, mən isə olaram sənin nökərin, - deyə it təklif etdi.

Və onlar yola düzəldilər.

İt və pişik bir gün, iki gün yol getdilər, çaylar keçdilər, dağlar aşdılar , çox getdilər və nəhayət onlar meşəyə gəlib çatdılar. Lakin burada da yeməyə heç nə yox idi. Meşədə də acqarına veyilləndilər. Elə təzəcə istirahər etməyə hazırlaşırdılar ki, birdən bunların yanında ac qurd peyda oldu və qəzəblə soruşdu:

-Siz kimsiniz və haradan gəlmisiniz?

İt gördü ki, işlər yaxşı deyil, ona görə hiyləyə əl atdı.

-Sənin qarşında Süleyman xandır, - deyə it cavab verdi və pişiyə işarə vurdu. O bütün bu meşənin və dünyanın sahibidir, mən də onun nökəriyəm. Xan öz mülklərinə baxmağa gedir. O, çox qəzəblidir və bütün heyvanları öz torpaqlarından qovmaq istəyir.

Qurd qorxdu, Süleyman xanın qarşısında əyilərək təzim etdi, ona  yaxşı yol arzuladı və söz verdi ki, onlara hədiyyələr verəcəkdir. Gedərkən qurd xanın nökərinə pıçıltı ilə dedi:

-Məni o ağacların yanında gözləyin. Mən gedib heyvanlara deyim ki,onlar da hədiyyələr gətirsinlər.

Qurd hövlnak meşə boyu qaçdı və ayıya rast gəldi:

-Boz qurd hara qaçırsan? – deyə ayı souşdu.

-Oh bəlamız, dərdimiz artıb. Süleyman xan gəlib və o bizi

bu meşədən qovmaq istəyir. - O elə qəzəblidir ki, mənə onun nökəri dedi ki, kim onun xoşuna gəlmirsə, o saat onu yeyir. Onu nəyəsə qonaq etmək lazımdır.

-Onu neçə qonaq edək?

Məni indidən qorxu bürüyüb, -deyə ayı zarımağa başladı.

-Gedək, o biri heyvanları axataraq!

Onlar meşədə qabanı, tülkünü tapdılar və məsləhətləşdilər ki, Süleyman xana nə aparsınlar.

Tülkü dedi:

- Mən fikirləşib, tapdım. Sən, qurd, yağlı qoyun ələ keçirərsən, sən, ayı, ağacları yaxşı aşırırsan, iki quru ağacla bura gəl. Mən çobanlardan bir tiyan və kibrit oğurlayaram, tiyanı qabana verərəm, onu su ilə doldurar. Sonra biz bir yerdə Süleyman xanın yanına gedib, ona qonaqlıq verərik. Heyvanlar çox sevindilər və tülkiyə öz minnətdarlıqlarını bildirdilər.

-Sən ayrı aləmsən, tülkiciyəz. Sən çox ağıllısan. Bızı bu bəladan xilas etdin. Əsrlər keçsə də, bunu unutmarıq.

Neçə demişdilər, elə də, etdilər. Qurd yağlı qoyun gətirdi, ayı üç ağacla gəldi, qaban isə iri qazan su gətirdi, tülkü isə kibritlə gəldi.

-Yemək az deyil ki, - deyə ayı qurddan soruşdu.

-Deyəsən, yox. Süleymanxan görünüşçə heç də böyük deyil, -deyə qurd cavab verdi.

Onlar xan və nökərin olduqları yerə gəldilər.

Yüksüz tülkü irəlidə yeriyirdi. O xanın qarşısında söyləyəcəyi nitqi beynində götür-qoy edirdi.

Heyvanlar pişiyə və itə yaxınlaşıb təzim etdilər. Tülkü bütün gələnlərin adından xanı salamladı.

Onlar yemək-içmək hazırlamaqla məşqul oldular.

Tezliklə hər şey hazır oldu. Süleyman xanın neçə yemək yeyəcəyinə tamaşa etmək üçün heyvanlar ağaca dırmaşdılar, qaban isə kötüklərin arasında gizləndi. Pişik və it ac olduqlarından qaynar ətin üzərinə atıldılar.

Pişik bərk yandı, fınxırdı, quyruğunu qaldırıb, myau-m-

yau qışqıraraq ağaca dırmaşdı. Burada ayı oturmuşdu. Ayı qorxdu və qurdun üstünə qışqırdı:

-Sənə dedim axı, yemək azdır! –o ağacdan yıxılaraq ölümcül hala düşdü.

Pişik də qorxdu və o biri ağaca keçdi. Burada qurd oturmuşdu. Qurd uluyaraq ağacdan yerə dəydi və onun alnı əzildi. O tez buradan əkildi və qorxudan yolda öldü.

Tülkü ağacdan yıxılsa da, o heç bir şey olmamış kimi öz yuvasında gizləndi. Pişik gördü ki, kötüklərin arxasında nə isə tərpənir. O elə bildi ki, bu siçandır, tez ora atıldı və qabanın qulağını gəmirməyə başladı. Qaban qaçdı, o bərk kədərlənib sıx qamışlığa üz tutdu, yaralı qulağını palçığa bulaşdırdı və şikayətedici halda, inildədi.

-Oy xan! Oy Süleyman! Bundan belə sən bizim başımıza nə oyun açacaqsan?

Pişik isə itlə birgə üç gün qoyun əti yedilər, yemək onların xoşuna gəldi, sonra bu cütlük öz keçmiş sahiblərinin yanına qayıtdı. Onlar “Meşədə yaşamaq o qədər də asan deyil!” dedilər.

# AĞ İNƏK ZAZA

## *(Lak xalq nağılı)*

Bir vaxtlar bir dul kişi yaşayırdı. Onun yeganə qızı vardı. Qız qonşuda yaşayan dul qadının yanına ya od almağa, ya da duz istəməyə gedərdi. Dul qadın nəinki imtina edərdi, hətta ona bəzən çörək, bəzən piroq, bəzən də ət və alma verərdi. O, dəfələrlə qıza demişdi;

- Atanı yola gətir ki, məni alsın.

Qız da həmişə atasına deyərdi;

- Ata, qonşudakı qadınla evlən.

- Qızım, gözlə. Qoy inəyimiz doğsun, sonra evlənərəm – deyə ata cavab vermişdi.

Budur, qız yenə də atasından xahiş etdi:

-Ata, qonşu qadınla evlən!

- Gözlə qızım qoy taxıl yetişsin.

Budur, taxıl da yetişdi.

- Qonşu qadınla evlən, ata! - Qonşu qadınla evlən, ata! – deyə qız təkid etdi.

Nə etməli, ata nəfayət, qonşu dul qadınla evləndi.

Budur, ögəy ana piroq hazırlayır. Özünə pendir və ya kəklik otu ilə, ögəy qızına isə kül və qumla. Özünə yumşaq samandan kisə toxuyur, qızın yatağını isə tikanlı edirdi.

- Ata, mən heç nə yeyə bilmirəm! Ata mən yata bilmirəm, - deyə qız şikayətlənirdi.

Ögəy ana isə şər yıxırdı və çox istəyirdi ki, ögəy qızı evdən qovulsun.

Günlərin birində ata meşəyə odun dalınca getdi. O, özü ilə qızını da götürdü. Burada qız atasının çuxasının üstündə yuxuya getdi. Ata qızı burada qoyub, özü sakitcə meşədən getdi.

Qız yuxudan ayıldı və gördü ki, atası yanında yoxdur. O, bir tənəyə qalxdı və qışqırdı.

- Ata!

O biri tənəyə qalxdı və qışqırdı:

- Ata!

Lakin səs çıxmadı. Onda qız bir ağaca qalxdı və acı-acı ağladı.

Bu vaxt buradan canavarlar keçirdi. Onlar qızdan soruşdular:

- Ay qız, niyə ağlayırsan?

- Ona görə ağlayıram ki, siz məni yeyə bilərsiniz.

- Biz sənə toxunmarıq, odur, ayı sürüsü gəlir, görürsən? Onlar səni yeyə bilərlər.

Bura ayılar gəldi.

- Ay qız sən niyə ağlayırsan?

- Ağlayıram ki, siz məni yeyə bilərsiniz.

- Biz sənə toxunmarıq. Odur, tülkü dəstəsi gəlir. Bax, onlar səni yeyə bilərlər, - deyə ayılar bildirdilər.

Tülkülər gəldilər və dedilər:

- Biz səni yemərik. Odur, bax ağ inək Zaza gəlir. O bir buynuzu ilə göyü qazır, o birisi ilə yeri. Bax, qoy o səni yeməsin.

Budur, ağ inək Zaza gəldi və ağacın altında oturub dedi:

- Oh, mən möhkəm yorulmuşam.

Birdən onun üstünə damcı düşdü. O yuxarı baxdı və dedi:

- Yağış yoxdur, damcılar hardan gəlir?

Sonra o yenə də yuxarıya baxdı və nəhayət, ağlayan qızı gördü.

- Sən kimsən, mənim balam? – deyə Zaza soruşdu.

- Qorxuram ki, sən məni yeyərsən, - deyə qız cavab verdi.

- Yox, yox, qorxma. Gəl mənimlə gedək.

Onlar çox getdilər, az getdilər, gəlib zirzəmiyə çıxdılar. Burada Zaza bir neçə bardaq göstərib dedi:

- Qızım, nə qədər istəyirsən, ye iç, ancaq bardaqlara toxunma.

Lakin bir gün ağ inək Zaza evdən harasa getdiyi vaxt qız barmağını bir bardağa soxdu, elə o anda barmaq gümüşü

rəng aldı. Qız qorxdu, daşı götürüb barmağını əzdi, sonra da ona sarğı qoydu. Ağ inək Zaza evə gəldi.

- Sənin əlinə nə olub, qızım?

- Heç nə, - deyə qız cavab verdi.

- Göstər görək, mənim balam?

Görəndə ki, barmaq əzikdir, ağ inək Zaza dedi:

- Soyun, qızım mənim, bu bardaqda çim.

Qız soyundu, bardaqda çimdi və o, bütünlüklə gümüşü rəngdə oldu.

- İndi isə o biri bardaqda çim.

Qız çimdi və qızılı rəngdə oldu.

- İndi isə əlini mənim sağ qulağıma sal. Qız oradan mis və çini bardaqlar, padnoslar, fincanlar, böyük qazanlar, şüşə qrafinlər çıxartdı.

- İndi isə sən əlini o biri qulağıma sal.

Qız oradan mirvari, mərcan, ipək paltarlar, şallar, sarı ayaqqabılar, yasəmən çıxartdı.

Sonra ağ inək Zaza qıza qırmızı paltar geyindirdi. Ona qənd-şəkər yedizdirdi və qızı xanın oğluna ərə verdi.

O toyda məndə rəqs etdim, yedim, içdim, sonra isə sizin yanınıza gəldim.

# ÇOBANIN DOSTLARI

### *(Kumık xalq nağılı)*

Bu əhvalat olub, ya olmayıb, bilinmir ancaq nəql edirlər ki, bir şəhərdə kasıb çoban yaşayırdı. Ata ilə oğul çobanlıq edir və şəhərdəki mal-qaranı otarırdılar.

Günlərin birində gənc inəkləri çəməndə otararkən, dənizin kənarında, qumun üstündə böyük bir balıq gördü.

Çoban yolla gedən bir adamla atasına xəbər göndərdi ki, o, qəniməti aparmaq üçün araba ilə dəniz sahilinə gəlsin. Özü isə xəncərini çıxarıb balığın üzərinə atıldı. Balıq quyruğunu bulayaraq insan dili ilə rəhm etməyi xahiş etdi, çobana yalvardı ki, onu öldürməsin.

-Məni dənizə at. Çətin məqamda mən sənin köməyinə gələrəm.

-Mən çətinliyə düşəndə səni necə köməyə çağıra bilərəm? –deyə gənc soruşdu.

Mənim üzgəçimi götür. Lazım olanda dənizin sahilinə gəl və üzgəci oda at. O, yanıb qurtarmamış mən sənin yanına gələrəm.

Gəncin balığa yazığı gəldi, üzgəci götürüb, onu dənizə itələdi.

-Hanı o böyük balıq, oğul, deyə ata uzaqdan qışqırdı.

O, sevincək araba ilə qənimət dalınca gəlirdi.

-Balıq çox istəyirdi ki, dənizə qayıtsın. O, məndən kömək istədi. Mən ona yardım etdim, -deyə oğul bildirdi.

Ata oğlunu danladı, söydü, hətta onu döymək istədi.

Çoban əsəbiləşmiş atasının yanından qaçdı və meşəyə gəldi. Burada gəzərkən o, şikayət edici inilti eşitdi. İrəli getdi və gördü ki, maralın buynuzu ağacın budaqlarına ilişib. Gənc xəncərə əl atanda maral insan kimi dil açıb, dedi:

- Məni öldürmə, ey insan məni burdan xilas et! Sonra yunumdan bir az çək və özündə saxla! Çətinliyə düşsən həmin

yunu oda at və mən qarşında olacaq və xidmətində dayanacağam.

Gəncin marala yazığı gəldi. O, heyvanı budaqlardan xilas etdi, ondan bir az yun qoparıb, yazığı azadlığa buraxdı.

Çoban meşədə çox gəzdi, nəhayət talaya gəlib çıxdı. Bu vaxt o, gördü ki, tülkü qaçır, onu bir neçə ev iti təqib edir.

Tülkü bərk yorulmuşdu. O, gəncin ayaqlarına qısıldı:

- Məni öldürmə, xeyirxah insan!  - deyə tülkü ağlamağa başladı. Məni bu ov itlərindən xilas elə və quyruğumdan tük qopart, lazım olanda mən sənin köməyinə gələrəm.

Çoban ov itlərini qovdu və tülküdən tük qoparıb, onu meşəyə  buraxdı.

O, yoluna davam etdi və böyük bir şəhərə gəlib çatdı.

- Qonaq qəbul eləməzsiniz? - deyə o, şəhər darvazasının yanındakı bir kasıb evin qapısını döydü.

- Niyə də qəbul etməyək? – deyə qoca ev sahibəsi cavab verdi.

O, çobanı masa arxasına oturtdu, onu yedirtdi, içirtdi. Sonra çoban şəhərə baxmağa çıxdı.

Bu şəhər həm varlı, həm də geniş idi. Burada çoxlu qəşəng binalar, həm də çox möhtəşəm xan sarayı vardı. Qonaq geri qayıdıb, qarıdan xan sarayında kimlərin yaşadıqlarını soruşdu:

- Oh, yaxşı olar ki, soruşmayasan, oğul! – deyə qarı dərindən köks ötürdü. – Bizim xanın gözünün ağı-qarası bir qızı var. Onun şöhrəti bütün əcnəbi ölkələrə yayılıb. Xanın qızı çox ağıllı və gözəl, qürurlu və qəddardır. Çoxlu mərd insanlar onu nişanlamaq istəyib. Hər birinə o, əmr edir ki, gizlənsin. Əgər qız o, adamı tapa bilməsə həmin şəxsə ərə gedəcəkdir.

-Mən axı qorxaqlardan deyiləm? - Mən də gedim, gözələ tamaşa edim!

-Getmə, oğul, - deyə qarı onu yola gətirməyə çalışdı. –Axı sən məni axıra kimi dinləmədin. - Həyatda elə bir adam tapılmayıb ki, ondan gizlənə bilsin. Suyun dibində də olsa, yerin

altında da olsa, həmin adamı qız tapacaq. Onun üstündə nə qədər gəncin boynu vurulub.

- Qəm etmə, xeyirxah qarı! – deyə çoban dilləndi. – Axı mən təkcə adi çobanam. Evləndim, evləndim – bunun əhəmiyyəti yoxdur. Bəlkə, mən xan qızına kələk gəldim.

O, saraya gəldi və qışqırdı:

- Ey, böyük xan, mən istəyirəm ağlımı qızının ağlı ilə yoxlayım.

- Qızım, bu divanəyə cavab ver, - deyə xan buyurdu.

Xan qızı cavab olaraq qaladan qışqırdı:

- Elə qizlən ki, mən səni tapa bilməyim, onda mən səninəm

Lakin, əgər mən səni tapsam, boynun vurulacaq. Bunu yadında saxla!

- Mən neçə dəfə gizlənməliyəm? – deyə çoban soruşdu.

- Üç dəfə!

- Yaxşı axtar! –deyə gənc dəniz sahilinə tələsdi, üzgəci yandırdı.

Balıq dənizin dərinliyindən üzüb gəldi:

- Sənə nə lazımdır, cavan oğlan? Sənin qayğın nədir?

O, balıqdan xahiş etdi ki, onu lap uzaqda gizlətsin. Balıq ağzını açdı, çobanı uddu, sonra o, dənizin dərinliyinə getdi və bədəni ilə quma girdi.

Xan qızı qaladan yuxarı, aşağı, dörd tərəfə baxdı. – Heç yanda gənci görmədi. Əgər balıq üzən gəmini görüb ağzını açmasaydı qız gənci tapmaya bilərdi.

- Görürəm, görürəm! Deyə xan qızı sevinərək, əl çaldı. – Çıx sən lap dənizin dibində belə məndən gizlənə bilməzsən.

Çoban balığın ağzından çıxıb, xan qızının qarşısında dayandı.

- İkinci dəfə gizlən! – deyə qız əmr etdi.

Gənc meşəyə gəlib, maralın tükünü yandırdı. Budaqlar tərpəndi, səs saldı və elə o anda maral peyda oldu. O dedi:

- De görək, sənə necə kömək edə bilərəm?

Gənc xahiş etdi ki, onu yaxşıca gizlətsin.

Maral gənci tərkinə aldı və dedi ki, ondan möhkəm yapışsın.

O, külək kimi uçdu. Maral dərələri, dağları aşdı və gəlib, dərin bir mağaraya daxil oldu. O, gənci orada gizlətdi özü isə bədəni ilə mağaranı örtdü.

Xan qızı yuxarıya, aşağıya qaladan dünyanın hər dörd tərəfinə baxdı. Əgər milçək gəncin başının üstündə hərlənməsəydi və maral qalxıb, onu qovmaq istəməsəydi, xan qızı gənci tapmaya bilərdi.

- Görürəm, görürəm mağaradan çıx! – deyə gözəl qışqırdı və sevincindən əl çaldı. – Üçüncü dəfə gizlən!

Gənc geniş düzə gəldi, tülkünün quyruğundan çəkdiyi tükü yandırdı.

-Xeyirxah insan, sənə necə kömək edə bilərəm, Qayğın nədir? – deyə tülkü soruşdu.

- Öz hiyləgərlik kisəni aç və məni elə gizlət ki, heç kəs tapa bilməsin. – deyə gənc cavab verdi.

Tülkü kürən saqqalı olan tacirə çevrildi, rəngli tumacı qoltuğunun altına qoyub, gənci birəyə çevirdi və ona bildirdi ki, bağlamada gizlənsin.

-Mən öz mallarımla xan sarayının qülləsi önündə gəzişəcəyəm, - deyə tülkü gəncə fikrini bildirdi. Xan qızı qəşəng geyinməyi sevdiyi üçün tumaca baxmaq istəyəcək və məni yuxarı çağıracaq. Onda sən onun paltarının ətəyinə tullanarsan. Əgər xan qızı səni tapsa, qoy mənim kürən saqqalımı kəssinlər.

Xan qızı qalada dayanıb, aşağı, yuxarı, dörd tərəfə baxırdı. Gənc heç yanda görünmürdü. Bu vaxt o, qalanın ətrafında gəzişən taciri gördü.

- Kimə əla tumac lazımdır? Ay tumac alan! Kim qırmızı, göy tumac alar? – deyə tacir qışqırırdı.

- Tumacını bura gətir! – deyə xan qızı buyurdu.

- Tacir qalaya qalxdı və mallarını xan qızının qabağına

tökdü. Xan qızı tumaclara baxarkən birə qıza hiss elətdirmədən onun paltarının ətəyinə tullandı.

- Hə, qızım, sən bu adamı görürsənmi? – deyə xan səbirsiz halda soruşdu?

- Yox, ata, onu heç yanda görmürəm! – deyə gözəl cavab verdi.

- Yaxşı bax, gözəlim!

Lakin xan qızı nə qədər o yan, bu yana baxsa da, cavanı görmədi.

- Mən onu tapmaq üçün ümüdümü itirmişəm.

Elə bu vaxt gənc çoban öz əvvəlki görkəmini aldı.

Məmləkətdə bütün xalq sevindi ki, çoban qəddar xan qızının öhdəsindən gəldi. Toplardan yaylım atəşi açıldı, təbillər vuruldu, zurna çalındı, mahnılar oxundu və böyük məclis quruldu. Burada mən ayı kimi oynadım sonra xalqı oxumaqda, şənlik etməkqə qoyub siz balacaların yanına qaçdım ki, bu nağılı sizlərə danışım.

# QURD HAQQINDA

***(Kumık xalq nağılı)***



Qoca ac qurd bir gün yol ilə gedirdi və o bir ulağa rast gəldi.

- Ulaq, ay ulaq, mən səni yeyəcəyəm, - deyə qurd ona fikrini bildirdi, - mən səni yeyəcəyəm.

- Eybi yoxdur, ye, - deyə ulaq cavab verdi. – Amma yeməyi əvvəl başdan yox, arxadan başla. Arxadaki ət daha ləzzətli olur.

Qurd ulağın arxasına keçdi. Ulaq ona elə şıllaq atdı ki, qurdun bütün dişləri töküldü.

Qurd yoluna davam etdi və o keçiyə rast gəldi. O dedi:

- Keçi, ay keçi, mən səni yeyəcəyəm. Mən səni yeyəcəyəm.

- Yaxşı, ye, - deyə keçi razılaşdı, - qoy əvvəl mən gedim, çəpişlərimi yemləyim.

Qurd onu buraxdı, keçi qaçdı və daha qayıtmadı.

Qurd yenə də yoluna davam etdi. Onun qarşısına qoyun çıxdı.

- Qoyun, qoyun, - deyə qurd ona müraciət etdi. – Mən səni yeyəcəyəm.

- Yaxşı, - deyə qoyun cavab verdi, - ancaq gözlə, mən gedim quzularımı əmizdirim.

Qoyun getdi, o da geri qayıtmadı.

Qurd yenə irəlilədi və dəvəyə rast gəldi.

- Dəvə, ay dəvə, - deyə qurd ona bildirdi. – mən səni yeyəcəyəm.

- Yaxşı, etirazım yoxdur. Gəl otur üstümdə və məni ye, - deyə dəvə təklif etdi.

“Hə bunu əldən buraxa bilmərəm” – deyə qurd fikirləşdi və dəvənin üstünə çıxdı.

Dəvə qaçmağa başladı.

Qurd qorxdu və istədi ki, dəvəni dişləsin, lakin onun dişi yox idi. Dəvə bazara gəldi. Adamlar qurdu görüb, onu dəvənin üstündən aşırdılar və döyməyə başladılar. Qurd güclə adamların əlindən qurtardı. O, hündür körpüyə gəlib çatdı və burada gizləndi. Lakin onun quyruğu bayırda qaldığından adamlar onu kəsdilər. Qorxudan qurd körpüdən aşdı və o, çaydakı iri qayalara dəyərək parçalandı.

# KAMIR-BATIR

## *(Noqay xalq nağılı)*

Biri vardı, biri yoxdu bir qoca çoban vardı. Onun nə arvadı, nə də oğlu vardı. Çox illər idi ki, o, xana muzdurluq edir, onun minlərlə qoyununu otarırdı. Özünün isə heç nəyi yox idi. Çoban auldan bir az kənarda yaşayırdı.

Günlərin bir günü o, səhər erkən adəti üzrə balaca çəlləkdə xəmir yoğurdu, sonra isə xanın qoyunlarını çölə apardı. Çobanla çox gec qayıtdı və burada uşaq səsi eşitdi. Otağa daxil olanda gördü ki, xəmir yoğurduğu balaca çəlləkdə bir uşaq uzanmışdır. Qoça buna çox sevindi. O, uşağı qucağına götürüb, xanın yanına qaçdı.

-Nə etmək olar,- deyə xan icazə verdi ki, çoban uşağı qoyunların südü ilə bəsləsin.

-Qoy böyüsün. Uşaq sənin balan olar, mənim üçün isə işçi böyüyər.

Beləliklə qoca oğula sahib oldu. Uşaq çox tez böyüdü, az vaxt ərzində oğlan pəhləvana çevrildi.

Onun adını Kamır-Batır qoydular, bu da xəmirdən olmuş pəhləvan mənasını verirdi.

Günlərin birində Kamır-Batır xanın oğulları ilə aşıq-aşıq oynayırdı. Xan balaları ona bütün aşıqları  və qızıl toxmaqı uduzdular. Əsilzadələr toxmaqdan heç ayrılmaq istəmirdilər. Onlar güclə onu Kamır-Batırdan almaq istədilər. Lakin pəhləvanla bacarmaq mümkündürmü?

Onda Kamır-Batır dedi:

-Aşıqları və toxmağı sizə qaytararam. Ancaq bir şərtlə. -Sizin alnınıza bir cırtma vurmalıyam.

Xanın oğulları razılaşdılar və Kamır-Batır onların hər birinin alnına bir çırtma vurdu. O, çırtmanı elə vurdu ki, xan varislərinin alnında dəlik əmələ gəldi.

Oğullar atalarının yanına şikayətə gəldilər. Xan qəzəb-

ləndi, həm də çox qorxdu.

-Bu, neçə olan işdir! Çoban oğlu quldur böyüyəcək və yaşayışımız çətinləşəcək. Ondan yaxamızı qurtalmalıyıq.

Budur, xan məsləhətçilərini ətrafına topladı ki, Kamır-Batırın təhlükələrindən xilas olsunlar.

Əyanlar çox düşündülər, nəhayət əlac tapdılar.

-Onu hündür qamışları olan susuz çölə göndərək. Orada üçbaşlı əşdaha yaşayır. Bu günə kimi heç kəs onun əlindən qurtara bilməyib.

Belə məsləhət xanın xoşuna gəldi. O, qoca çobanı yanına çağırdı.

-Qoy oğlun çölə gedib qamış kəssin. - Qoy o, özü ilə üç araba aparsın.

Üç araba qoşuldu və Kamır-Batır qamış dalınca yollandı. O, üç arabanı qamışla doldurdu. Elə təzəcə geri qayıtmaq istəyirdi ki, qamışlıqdan onun qarşısına üçbaşlı əjdaha çıxdı. Kamır-Batır ondan heç də qorxmadı. O, nəhəngi arabaya qoşdu, bütün qamışları onun üstünə yüklədi, bütün qamışları arabadan boşaltdı və onlarla birgə aula daxil oldu. Xan qorxuya düşdü.

Əjdaha çox bədheybət idi. Lakin xan ən çox Kamır-Batırdan qorxdu. Bunu görən xan əmr etdi ki, əşdahanı meşəyə qovsun, özü isə atası çobanın yanına qayıdıb, qoyunları otarsın. Kamır-Batır çölə, atasının yanına gəldi. O, sakit yaşayır, xanın sürüsünü otarırdı. Xan isə yenə də, məsləhətçiləri ətrafına topladı.Onlar çox götür qoy etdilər, xeyli fikirləşdilər ki, muzdur oğlunu neçə məhv etsinlər. Xan qərara gəldi ki, Kamır-Batırı çoxlu ilanları olan meşəyə göndərsin. Həmin meşədən heç kəs sağ qayıtmamışdı. Xan yenə də, qoca çobanı saraya gətirtdi.

-Oğlunu sıx meşəyə odun dalınca göndər, Qoca Kamır-Batırı yola hazırladı, meşəyə aparmaq üçün üç araba qoşuldu.

Kamır-Batırı yola düzəldi. O meşədə xeyli odun doğradı, onları arabalara yüklədi. Gənc meşədən təzəcə çıxmaq istə-

yirdi ki, gördü ki, hər tərəfdən ona tərəf ilanlar sürünür.

Kamır-Batır heç də ilanlardan qorxmadı. Əksinə, hətta onları görüb, sevindi də. Axı o, özü ilə kəndir götürməmişdi. Kamır-Batır odunları ilanlarla sarıdı və evə yollandı. Arabaların içində olan ilanları görüb, xan qorxudan əsməyə başladı. Lakin Kamır-Batır onun üçün daha dəhşətli düşmən idi. O, qoca çobana əmr etdi.

- Qoy oğlun ilanları burdan qovsun, onları gözüm görməsin.

Kamır-Batır ilanları odunlardan və arabalardan açdı, onları buraxdı. İlanlar güclə meşəyə üz tutdular, Kamır-Batır isə atası ilə çölə, xanın qoyunlarını otarmağa yollandı.

Üçüncü dəfə xan yenə də, şura çağırdı. Hamı çox fikirləşəndən sonra belə qərarlaşdılar ki, bir quyu qazılsın və çoban oğlunu ora atsınlar.

Gizlicə çöldə bir dərin quyu qazdılar və xan öz əyanları ilə bura gəldi, güya onlar gəzməyə çıxıblar. Onlar quyunun yanında düşərgə saldılar. Xan əvvəlcədən buyurdu ki, quyunun üstünə və ətrafına bahalı xalılar döşənilsin. Xan burada oturub, əmr etdi ki, hamıya müxtəlif yeməklər paylansın.

Nökərlər gələnlərə qulluq göstərir, qızardılmış quzuya onları qonaq edirdilər. Xan özü ilə Kamır-Batırı da götürmüşdü. Onu kənarda dayanan görüb, xan dedi:

- Niyə sən işsiz dayanmısan? Yeməklərdən götür və qonaqlara təqdim elə.

Kamır-Batır bir sini götürüb əyan və məsləhətçilərə xörək paylamaqa başladı. Xörək paylayanları xalçaların üzəri ilə hərəkət etməyə icazə vermirdilər.

Kamır-Batır da xalçaların üzəri ilə yox, kənarı ilə hərəkət edirdi.

Onda xan dedi:

- Niyə sən kənardan keçirsən? Xalçanın üstü ilə addımla!

Kamır-Batır elə ayağını xalçanın üstünə qoymuşdu ki, dərin quyuya düşdü. Xan isə o saat qalxdı və öz əyanları ilə

çıxıb getdi.

Kamır-Batır isə quyuda qaldı.

Xan sevindi ki, Kamır-Batırdan yaxaları qurtardı.

Nökərlər qoca çobana dedilər ki, xan onun oğlunu quyuya atdı və əmr etdi ki, kim ora yaxınlaşsa, başı bədənindən ayrılacaq.

Onda qoca qərara aldı ki,oğlunu xilas etsin. O, sürünü quyunun yanına aparır, və quyudakı oğluna yemək atırdı. Axşamlar isə sürünü geri qaytaranda, quyuya budaq və şüvül yerləşdirirdi. Kamır-Batır isə onlardan nərdivan hazırlayırdı.

Çox vaxt, yoxsa az vaxt kecdi, Kamır-Batır quyudan çıxaraq, azad oldu.

O, xanın yanına gəldi və ona dedi:

-Xan, sənin hiyləgər hərəkətlərinin heç biri mənə təsir etmədi.

Elədiklərinin cavabını al!

O xanın alnına bir cırtma vurdu. Xanın canı cıxdı. Kamır-Batır xanın oğullarını, bütün qohum-əqrabasını, məsləhətcilərini saraydan və ölkədən qovdu. O, kasıb xalqı azadlığa cıxartdı.

# OVÇU VƏ DOVŞAN

***(Noqay xalq nağılı)***



Mən sizə bir ovçu haqqında danışmaq istəyirəm. Bir kənddə kasıb, çox kasıb ovçu yaşayırdı. Köhnə tüfəngindən başqa onun heç nəyi yox idi.

Buna baxmayaraq onun balaca oğlu böyüyürdü. Ovçu övladını sevirdi.

Günlərin birində ovçu ova çıxdı. O. meşədə gəzib dolaşdı. Birdən ovçu kolun altında yatmış bir dovşan gördü. Ovçu dovşanı nişan aldı, özü isə fikirləşdi: ”Eh bu dovşanı indi vuraram”, onun dərisini çıxararam. Dərini bazarda sataram, çoxlu pul əldə edərəm. Həmin pula buzov alaram. Buzov da böyüyüb öküz olar. Öküzü arabaya qoşaram, qırmacı oğluma verib onu burada otuzduraram. Oğlum elə sevinər ki! O, “tsob!” qışqırıb öküzü sürər.

Xəyala dalan ovçu ”tsob!” deyərək elə qışqırdı ki, dovşan oyandı, kolun altından çıxıb ox kimi gözəgörünməz oldu və onu bir daha görmədilər.

Ovçu özünə gələndə, artıq gec idi.

# PƏHLƏVAN OĞLAN

***(Noqay xalq nağılı)***

Bir şəxsin uzun müddət uşağı olmurdu. Nəhayət arvadı ona bir oğlan doğdu. Bu elə uşaq idi ki, böyük oğlana oxşayırdı. Oğlanın olmasına sevinən ata böyük məclis düzəltdi. Şadyanalıqdan sonra, oğlan birdən dil açıb dedi:

- Ata mən artıq böyümüşəm. İcazə ver ata minib sənin sürülərini otarım.

- Sən nə danışırsan? – deyə ata etiraz etdi. Sən hələ çağasan!

Lakin oğlan əl çəkmədi, öz dediyində israrlı oldu. Onda ata dedi:

- Yaxşı get. Axşam ilxını toplamaq istəsən, təpəyə qalx və qışqır. Baş verənləri mənə danışarsan.

Oğlan atasının dediyinə əməl etdi. O, təpəyə qalxdı və qışqırdı. Bu vaxt yerdən bir cırtdan çıxıb dedi:

- Sənin necə gücə malik olduğunu bilmək istəyirəm. Məni ağacınla üç dəfə vur. Əgər mən bu zərbələrdən torpağa girsəm, onda sən güclüsən.

Oğlan birinci zərbəni endirdi, cırtdan qurşağa kimi yerə girdi, ikinci və üçüncü zərbələri endirən kimi cırtdan tam yerin altına girdi. Oğlan evə qayıtdı və hər şeyi atasına danışdı. O, oğlunu təriflədi.

- Afərin oğlum! Bir vaxtlar mən də cırtdana rast gəlmişdim. Lakin mən onun öhdəsindən gələ bilmədim.

Həmin gün oğlanın atasının yanına qonaqlar gəldi. Onlardan biri maraqlı əhvalat danışdı.

- Mən bir nəfəri tanıyırdım. Bu yaxınlarda o, öldü. Onun arvadını xarici ölkənin xanı oğurlayıb apardı.

Bunu eşidən oğlan özünü öyərək dedi:

- Mən həmin qadını geri qaytaracağam.

Və oğlan dənizin o tayına keçərək, elə bir şəhərə gəldi ki,

xan həmin qadını qaçırıb ora aparmışdı.

Şəhərin meydanında oğlan bir qadına rast gəldi. O, bu hadisə ilə bağlı bunları dedi:

- Bizim xanımız, - deyə qadın danışmağa başladı. – gözəl qadına evlənmək fikrindədir. Qadın isə ona ərə getmək istəmir. O, eləsinə getmək arzusundadır ki, xana qalib gəlsin. Mən görürəm ki, sən çox güclüsən. Mən fit çalan kimi qadını qəflətən götür və apar. Yaxşı, - deyə oğlan cavab verdi və buradan saraya yollandı. O gördü ki, xan və onun yanında yeddi yüz igid atlı gəlir.

Onların heç biri bu qadına sahib ola bilmir. Birdən kimsə fit çaldı. Oğlan cəsarətlənərək qadını tez ələ keçirib, qaçırtdı. Bütün dəstə onun dalınca düşdü. Oğlan qadınla sahilə gəldi və onlar atdan düşüb dənizdə üzməyə başladılar. Nahaq yerə xan qışqıraraq onları geriyə qaytarmaq istəyirdi. Bütün bunlar əbəs idi. Oğlan onlara qulaq asmadan qadınla birgə xeyli üzdülər və kəndlərinə gəlib çıxdılar. Beləliklə o qadını özünə gəlin gətirdi.

# ƏKİNÇİ VƏ ŞİR

***(Tat xalq nağılı)***



Keçmiş zamanlarda bir kəndli yaşayırdı. O, çox kasıb idi, nə qədər çalışsa da, var gücü ilə işləsə də heç nə qazana bilmirdi. Bir gün o, öz tarlasını şumlayarkən bura haradansa şir peyda oldu.

Kəndli qorxdu, şir isə dedi:

- Qorxma! Mən çoxdan sənə göz qoyuram və sən mənim ürəyimə yatmısan. Sən zəhməti sevirsən və böyük həvəslə işləyirsən. Gəl dost olaq. Sən öz işini gör, mən isə öz işimi. Nə əldə edərik, yarıya bölərik.

- Sən şirsən, mən isə insan, – deyə əkinçi cavab verdi. – Bizim aramızda olan dostluq necə ola bilər? Mən səndən qorxuram.

- Qorxma! Qorxunu unut! Axı sənin yanına ilk gələn mənəm.

- Hə, nə etməli... – deyə əkinçi fikrə daldı. – Yoxlayaq görək nə çıxır! Mən torpağı şumlayacağam, dən səpəcəyəm, məhsul yoplayacağam. Bəs sən?

- Yayda sənin əkin sahən istidən sola bilər. Sən isə bulağa su gətirməyə getməkdən qorxursan. Bulağın yanında həmişə vəhşi heyvanlar gizlənir. Mən heç kəsə imkan verməyəm ki, suya yaxın gəlsin. Sən də kiçik tarlanı suvararsan və bol məhsul götürərsən. Həm də mən sənin taxılını qabanların tapdağından qoruyaram. Adamlara imkan verməyəm ki, sənin bir dənini belə oğurlasınlar. Gecələr rahat yat, gündüzlər isə ürəklə işlə! Məgər bu, pisdir?

Kəndli razılaşdı.onlar dost oldular və birgə çalışmağa başladılar. Şirlə olan dostluğu kəndliyə boyük gəlir gətirdi. O, var-dövlət içində və sakit yaşadı.

Bir gün şir bu dostluğu sınağa çəkmək istədi. O, əkinçinin yanına tarlaya yox, onun evinə gəldi və dedi:

- Hə, insan, məgər pis yaşayırsan? Sən nahaq yerə o vaxt məndən qorxdun. Görürsən, dostluq nəyə qadirdir?

- Düz deyirsən! – deyə kəndli razılaşdı. – Sən mənim əsl dostumsan. Lakin, buna baxmayaraq, mən səndən qorxuram. Görkəmin çox vahiməlidir! Sənin başın pırtlaşıq köpək başına oxşayır.

Şir incidi, lakin buna o qədər də əhəmiyyət vermədi. Ancaq bunu dedi:

- Götür xəncəri və məni yarala!

- Sən nə danışırsan! – deyə kəndli dəhşətə gəldi. – Mən bunu necə edə bilərəm?

Lakin şir təkid etdi, əkinçi istər-istəməz şirin boynunu yaraladı.

Qanı yerə tökülə-tökülə şir heç bir söz demədən çıxıb getdi.

Öz mağarasına gələn şir ciddi-cəhdlə yaranı yaladı və o, tezliklə sağaldı.

Yara sağalandan sonra şir yenə də əkinçinin evinə gəldi

və ona buyurdu:

- Bax, xəncərlə yaraladığın yeri axtar tap.

Əkinçi çox axtardı. Nə yara, nə də onun yeri vardı, yara bitişmişdi.

- Yara sağalıb, - deyə əkinçi təəccübləndi. – Özü də belə tez!

- Xəncər yarası tez sağalır, - deyə şir cavab verdi.- Sağalmayan isə söz yarasıdır. Məni, heyvanlar şahını sən pırtlaşıq köpəklə müqayisə etdin. Bizim dostluğumuzun sonu çatdı. Bundan belə biz düşmənik. Ehtiyatlı ol!

# TƏRCÜMƏÇİ NATİQ SƏFİYEV HAQQINDA QISA MƏLUMAT



Natiq Yusif oğlu Səfiyev 1939-cu il mart ayınm 21-də Bakı şəhərində həkim ailəsində anadan olmuşdur.

1957-ci ildə Quba rayonu Alpan kənd orta məktəbini qurtarmışdır.

1962-ci ildə Azərbaycan Pedaqoji Universitetini, 1974-cü ildə Azərbaycan Rus dili və Ədəbiyyatı İnstitutunu, indiki Slavyan Universitetini müvəffəqiyyətlə bitirmişdir.

1965-ci ildən 2008-ci ilin sonlarına kimi Abşeron rayonu, Xırdalan qəsəbə (indi şəhər) orta məktəbində müəllim işləmişdir.

1963-cü ildən respublikanın dövri mətbuatında jurnalistlik fəaliyyətinə başlamışdır. O, "Qızıl qələm" media mükafatına layiq görülmüşdür.

Natiq Səfiyev məktəbdə işlədiyi müddətdə 6 ümumittifaq və 14 respublika pedaqoji mühazirələrində və elmi-praktik konfranslarında məruzələr etmiş, IV və V ümumittifaq mühazirələrindən II və I dərəcəli mükafatlarla vətənə qayıtmışdır. 1981-ci ildə müəllim mühazirələri müsabiqəsində II yeri tutmuş və SSRİ Pedaqoji Elmlər Akademiyasının fəxri diplomuna layiq görülmüşdür.

Natiq Səfiyevin indiyədək iki metodiki, iki tərcümə ("Qəribə tütək", "Köhnə dəyirman"), üç memuar ("Məni yaşadan xatirələr", "Yadda qalan günlərim", "Ömür salnaməsi"), didak-

tik hekayələr toplusu ("Babam mənim"), fotoalbom ("İşıqlı dünyam" və "Nicat" (hekayələr)) kitabları çapdan çıxmışdır.

Onun haqqında yüzdən çox məqalə, oçerk, üç kitab yazılmışdır (Akif Şahverdiyev "Ömrə sığmayan həyat", Güntəkin İlyasova "Natiq Səfiyev - "Biblioqrafik göstərici", Hikmət Məlikzadə "40 il mətbuatda").

O, məktəbdə çalışdığı müddətdə 1 yaradıcı diplom, 46 fəxri fərman, 5 təşəkkür məktubu və 5 nişan almışdır. 1989-cu ildə ona "Əmək veteranı" medalı verilmişdir.

Natiq Səfiyev 1996-cı ildən Azərbaycan Jurnalistlər Birliyinin, 2006-cı ildən isə Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Onun 3 qızı və 6 nəvəsi var.

Hal-hazırda təqaüddədir.

# MÜNDƏRİCAT:


DƏYİRMANÇININ OĞULLARI ........................................................ 3
(Avar xalq nağılı)

HAZIRCAVAB DƏYİRMANÇI........................................................... 6
(Avar xalq nağılı)

ƏSA ........................................................................................... 7
(Avar xalq nağılı)

CANAVAR, AYI VƏ TÜLKÜ ..........................................................11
(Avar xalq nağılı)

ƏKİNÇİ BƏBİRƏ NECƏ DƏRS VERDİ...........................................12
(Ləzgi xalq nağılı)

ÜÇ BACI .....................................................................................15
(Ləzgi xalq nağılı)

GÖY ÇAQQAL ..............................................................................19
(Ləzgi xalq nağılı)

XƏSİS QAZI .................................................................................22
(Ləzgi xalq nağılı)

DOSTLUĞUN SINAĞI ..................................................................24
(Ləzgi xalq nağılı)

TƏNBƏL QIZ ...............................................................................27
(Ləzgi xalq nağılı)

FALFARAŞ-AXUN .......................................................................31
(Ləzgi xalq nağılı)

ŞAMAMA ....................................................................................33
(Ləzgi xalq nağılı)

ÜÇ MÜDRİK MƏSLƏHƏT....................................................................36
(Darqi xalq nağılı)

XALA AVA VƏ XORUZCUĞAZ...........................................................38
(Darqi xalq nağılı)

QIZIL BAŞMAQ ..........................................................................................40
(Lak xalq nağılı)

İLAN VƏ TÜLKÜ.........................................................................................44
(Lak xalq nağılı)

AYI BALASI.................................................................................................45
(Lak nağılı)

SÜLEYMAN XAN ......................................................................................49
(Lak xalq nağılı)

AĞ İNƏK ZAZA..........................................................................................52
(Lak xalq nağılı)

ÇOBANIN DOSTLARI ..............................................................................55
(Kumık xalq nağılı)

QURD HAQQINDA....................................................................................60
(Kumık xalq nağılı)

KAMIR-BATIR.............................................................................................62
(Noqay xalq nağılı)

OVÇU VƏ DOVŞAN....................................................................................66
(Noqay xalq nağılı)

PƏHLƏVAN OĞLAN ..................................................................................67
(Noqay xalq nağılı)

ƏKİNÇİ VƏ ŞİR..........................................................................................69
(Tat xalq nağılı)

***Bu kitabda «Дагестанские народные сказки» (Москва «Детская литература» 1991) toplusunun rəssamı Yuri Nikolayevin bəzi rəsmlərindən istifadə edilmişdir.***

**Dizayner:** Fariz Məhərrəmov
**Operator:** Afaq Vəliyeva

Çapa imzalanmışdır: 28.08.2013.
Formatı: 60x84 1/16. Həcmi: 4,75 ç.v.
Sifariş 17. Tiraj 150.
«Təknur» MMC-nin mətbəəsində
hazır elektron variantdan ofset üsulu ilə çap olunmuşdur.

Mətbəə kitabın məzmununa, yazı üslubuna, orfoqrafiya
və qrammatikasına görə heç bir cavabdehlik daşımır.

**Mətbəənin direktoru:** Ələkbər Məmmədov

Ünvan: Bakı ş., Qanlı Gölün Qərb sahili, 125
Telefon: 408-18-30.